QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 169 (5641) **8 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Sosial-iqtisadi inkişaf Azərbaycanın prioritet istiqamətidir

*İlham Əliyev: "Mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə, sosial cəhətdən az təmin edilmiş vətəndaş"*



Səh 3


"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 67-ci kitabı çapdan çıxıb



→ 2

Vladimir Putin sentyabrın axırlarında Azərbaycana gələcək



→ 5

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə keçirilib



→ 5

"Kaspi" kurslarının yekun qəbul nəticəsi 96% təşkil edib



→ 5

Mərkəz sədri: "Paşinyanın xanımı "döyüşlə kəşfiyyat" aparır"



→ 10

Bu gün Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür



→ 10

→ 13

Ermənistan Rusiya-Qərb arasında çabalayır



→ 4

Naxçıvanın folklor irsindən bəhs edən yeni kitab işıq üzü görüb




→ 16

İkiqat Avropa çempionu: "Dünya çempionatına yüksək səviyyədə hazırlaşmışıq"



# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 67-ci kitabı çapdan çıxıb




***Azərbaycan bütün nailiyyətlərə təkbaşına çatıbdır. Bəzi hallarda əsassız təzyiqlərə də məruz qalmışıq. Bəzi hallarda bizə qarşı kampaniyalar da aparılıbdır və aparılar. Bəlkə bəzilərinin xoşuna gəlmir ki, Azərbaycan bu qədər müstəqil ölkədir, Azərbaycanda hər şey yaxşıdır, Azərbaycan çiçəklənir, gündən-günə inkişaf edir. Bu, bəzilərinin, necə deyərlər, gözünü deşir. Biz bunu da bilirik. Əlbəttə, iqtisadi güc imkan verir ki, siyasi səhnədə də heç kimdən çəkinmədən sözümüzü deyək, milli maraqlarımızı qoruyaq.***

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 67-ci kitabında yer alan və bütün dövrlər üçün aktual olan bu fikirlər dövlətimizin başçısının 2015-ci il yanvarın 27-də “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 67-ci kitabındakı materiallar 2015-ci ilin yanvarından mart ayınadək olan dövrü əhatə edir.

Nəşrdə Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərinə, orada bir sıra dövlət və hökumət başçıları, nüfuzlu şirkətlərin rəhbərləri ilə keçirdiyi görüşlərə və apardığı danışıqlara dair materiallar, Forumun “Regionların transformasiyası: Avrasiya” mövzusunda sessiyasında, Davosda “Bakı-2015” ilk Avropa Oyunlarının təqdimat mərasimində çıxışlarının mətnləri toplanıb. Dövlətimizin başçısının Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya işgüzar səfəri, konfrans çərçivəsində “Şaxələndirmə strategiyaları” mövzusunda “dəyirmi masa”da çıxışı, “Ukraynadan əlavə - Avropada həll olunmamış münaqişələr” mövzusunda panel müzakirəsində iştirakı barədə materiallar da kitaba daxil edilib. Azərbaycan Prezidentinin Bolqarıstana rəsmi səfəri zamanı iki dövlət arasında sənədlərin imzalanmasına, Bolqarıstanın Baş naziri ilə birgə mətbuat konfransında bəyanatına, Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfərinə, Türkiyəyə işgüzar səfəri zamanı keçirdiyi görüşlərə, eləcə də Qarsda Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin açılış mərasimində, Trans-Anadolu qaz boru kəməri - TANAP-ın təməlqoyma mərasimində çıxışlarına dair informasiyalarla da bu cilddə tanış olmaq mümkündür.

Çoxcildliyin 67-ci kitabında Prezident İlham Əliyevin Azərbaycana rəsmi səfərə gəlmiş Pakistan Prezidenti ilə görüşünə, iki ölkə arasında sənədlərin imzalanmasına, mətbuata bəyanatına, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın “Hilal-e-Pakistan” ordeninin təqdim edilməsi mərasimində, Azərbaycan-Pakistan biznes-forumunda iştirakına dair materiallar toplanıb.

Azərbaycan Prezidentinin İran, Türkiyə, Rusiya, Fransa, ABŞ, Yunanıstan, Böyük Britaniya, Sloveniya və digər dövlətlərin, ATƏT, Avropa İttifaqı və AŞPA-nın ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, xarici ölkələrin Azərbaycanda təyin olunmuş səfirlərini qəbul etməsinə, Rusiyanın Bakıya gəlmiş bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüşünə dair informasiyalar da nəşrdə yer alıb.

Bu kitabın əhatə etdiyi dövrün materialları sırasında, həmçinin “Bakı-2015” birinci Avropa Oyunlarına hazırlıqla bağlı aparılan təşkilati işlər haqqında informasiyalar var.

Çoxcildliyin bu kitabına Prezident İlham Əliyevin Mingəçevir şəhərinə, Qusar və Bərdə rayonlarına səfərlərinə, bir sıra mühüm obyektlərin, o cümlədən “Şahdağ” Qış-Yay Turizm Kompleksinin 1 saylı kanat yolunun və xizək enişinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bərdə regional “ASAN xidmət” Mərkəzinin açılışlarında iştirakına, bölgələrdə və paytaxtda sənaye və mədəniyyət müəssisələrində yenidənqurma işləri ilə tanışlığına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallar daxil edilib. Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri də verilib. “Azərnəşr” tərəfindən buraxılan 67-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Makedoniya Prezidenti Gyorge İvanova təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Prezident, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Makedoniya münasibətləri dinamik inkişaf yolundadır. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı xalqlarımızın rifahına daim töhfələr verəcəkdir. Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram”.

* * *

Prezident İlham Əliyev Hacıqabul rayonunun Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi (103 km)-Navahı-Pirsaat avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdəki yəhudi icmasına yeni il bayramı - Roş-Ha-Şana münasibətilə təbrik məktubu ünvanlayıb.

# Taro Kono: Azərbaycan Yaponiyanın mühüm tərəfdaşıdır

***Sentyabrın 2-dən 6-dək Yaponiya xarici işlər naziri Taro Kononun üç Qafqaz ölkəsinə - Ermənistan, Gürcüstan və Azərbaycana səfəri reallaşdı. KİV-lərin də qeyd etdiyi kimi bu, Yaponiya xarici işlər nazirinin Yerevan və Tbilisiyə ilk, Azərbaycana isə 19 ildən sonra ikinci səfəri idi. Bəs Yaponiya xarici işlər idarəsinin rəhbərini həmin səfərə sövq edən səbəblər hansılardır və bu səfərin region ölkələri, xüsusən də Azərbaycan üçün nə kimi əhəmiyyəti ola bilər?***



Əvvəlcə qeyd edək ki, ötən il Yaponiya ilə 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində yaranmış bu üç dövlət arasında diplomatik münasibətlərin qurulmasının 25 ili tamam olub. Ötən dövrdə Yaponiya xüsusən Azərbaycan ilə əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişafına böyük diqqətlə yanaşıb. Bunu həmin ölkələrlə Yaponiyanın münasibətlərinin tarixi, həm də nazir Taro Kononun Bakıya səfərindən əvvəl yerli mətbuatda dərc olunan fikirləri birbaşa təsdiq edir. Həmin məqaləsində nazir vurğulayır: “Yaponiya və Azərbaycan arasında əlaqələrin daha da inkişafına töhfə vermək mənim üçün şərəfdir və buna çox şadam. Xüsusilə, faydalı qazıntılarla zəngin olan, beynəlxalq enerji təhlükəsizliyində əsas rollardan birini oynayan Azərbaycan ilə əlaqələrin daha da möhkəmləndirilməsi Yaponiya üçün olduqca vacibdir”. Nazirin qeyd etdiyi kimi, Qafqaz ölkələrinə səfər eyni vaxtda həyata keçirilsə də, bu ölkələr arasında güclü iqtisadi potensiala, zəngin enerji resurslarına və beynəlxalq nəqliyyat dəhlizləri üçün son dövrlər daha da inkişaf etdirilmiş, müasir infrastruktura malik olan Azərbaycan Tokio üçün xüsusi çəkisi və əhəmiyyəti ilə fərqlənir.

Yaponiyanın dünya dövlətləri arasında mövqeyi, müasir dünyada çəkisi və yeri, iqtisadi və texnoloji inkişafı barədə faktları təkrarlamağa ehtiyac yoxdur. Bütün dünyada yaxşı tanınan “Made in Japan” brendli məhsullar barədə yazmağa da, həmçinin lüzum görmürük. Lakin qeyd etmək lazımdır ki, təbii resurslarının azlığına baxmayaraq, bu ölkə XX əsrin ikinci yarısında bütün dünyaya ən yüksək modernləşmə və inkişaf nümunəsi göstərə bilib. Yüksək inzibati idarəçilik təcrübəsinə və möhkəm nizam-intizama malik yapon xalqı qısa zaman kəsiyində yüksəliş və tərəqqinin Amerika modelindən fərqli, yeni bir model yaradıb. Enerji ehtiyatlarının məhdudluğu, iri sənayenin inkişafı üçün lazım olan enerji mənbələrinin çatışmazlığı Yaponiyaya ABŞ və Avropa ölkələri ilə həmin sahədə rəqabəti qeyri-mümkün etdiyindən, bu ölkə əsas diqqətini intellektual və yüksək texnologiyaya əsaslanan sahələrin inkişafına yönəldib.

Bu baxımdan Azərbaycanın Yaponiya modelindən, onun əldə etdiyi təcrübədən faydalana biləcəyi məqamlar kifayət qədərdir. Lakin bununla yanaşı, Taro Kononun da etiraf etdiyi kimi, Yaponiyanın da Azərbaycan ilə əməkdaşlıqdan faydalana biləcəyi məqamlar az deyil. Söz yox ki, burada ölkəmizin geostrateji mövqeyi, enerji təhlükəsizliyində oynadığı rol və etibarlı tərəfdaş imici xüsusi qeyd edilməlidir.

Məhz bu cəhətlər nəzərə alınmaqla, demək olar ki, Azərbaycanla Yaponiya arasında əlaqələr yüksək səviyyədədir. Bu gün Azərbaycanda Yaponiyanın 30 şirkəti fəaliyyət göstərir. Yaponiya ilə Azərbaycan arasında ticari-iqtisadi münasibətlərin inkişaf etdiyi son illərdə rəsmi Tokio ölkəmizə təqribən 7 milyard dollar investisiya yatırıb. Azərbaycan ilə Yaponiya arasında energetika, iqtisadiyyat, sərmayə qoyuluşu, səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlıq yüksək səviyyədədir, digər istiqamətlərdə də əlaqələrin inkişafı üçün böyük potensial mövcuddur.

Təsadüfi deyil ki, Azərbaycana rəsmi səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə, Baş nazir Novruz Məmmədovla və xarici işlər naziri Elmar Məmmədyarovla görüşlərdə Bakıya səfərindən məmnunluq hissi keçirdiyini deyən Taro Kono iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib və əlaqələrin daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib. Nazir Yaponiyanın “İtoçu” və “İnpeks” şirkətlərinin uzun illər “Azəri-Çıraq-Günəşli” (AÇQ) və Bakı-Tbilisi-Ceyhan (BTC) layihələrində pay sahibi olduqlarını xatırladaraq, AÇQ üzrə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının əhəmiyyətini vurğulayıb və bunun əməkdaşlığın bundan sonra da genişlənəcəyinə töhfələr verəcəyinə inamını ifadə edib. Taro Kono, həmçinin bildirib ki, Yaponiya iki ölkə arasında birbaşa aviareyslərin açılmasında maraqlıdır və bu, turizm sahəsində əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət daşıyır.”

# Sosial-iqtisadi inkişaf Azərbaycanın prioritet istiqamətidir

## *İlham Əliyev: "Mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə, sosial cəhətdən az təmin edilmiş vətəndaş"*



İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Məhz bu baxımdan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Dövlət başçısı Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq. Demək olar ki, hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərin artırılması, sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan tədbirlər yoxsulluğun səviyyəsinin azaldılmasına, eləcə də, ölkənin məşğulluq strategiyasının səmərəliliyinə müsbət təsir göstərir. Məhz bunun nəticəsidir ki, son 14 ildə ölkədə işsizlik və yoxsulluq 5 faizə düşüb, 1,5 milyondan artıq yeni iş yeri açılıb, üç mindən çox məktəb, altı yüzdən çox tibb ocağı tikilib və ya əsaslı şəkildə təmir edilib.

### "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır"

Azərbaycan iqtisadiyyatında əldə olunan uğurların, son nəticədə, sosial ədalət prinsiplərinin möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayan dövlət başçısı İlham Əliyev sosial sahədə həyata keçirilən ciddi proqramların mahiyyətini izah edərək deyib: "Sosial təminat sahəsində də ciddi islahatlar aparılmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi qarşısında belə vəzifələr qoyulub. Bu sahədə buraxılmış səhvlər, pozuntular tam aradan qaldırılmalıdır. Sosial ədalət tam bərqərar olunmalı və şəffaflıq tam təmin edilməlidir. Dövlət bu sahəyə çox böyük diqqət göstərir və mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə, sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik. Məhz buna görə yüz minlərlə ailə dövlətdən bu təminatı alır. Ancaq bir çox hallarda vətəndaşların hüquqları pozulur, ədalətsizlik hökm sürür, yardıma ehtiyacı olan yardım almır, yardıma ehtiyacı olmayan yardım alır və ondan sonra o, vəsaiti dövlət məmurları ilə bölüşür. Belə hallar kifayət qədər çoxdur, indi ciddi araşdırma aparılır. Sosial təminat sahəsində tam şəffaflıq təmin edilməlidir, sosial ədalət tam bərqərar olmalıdır".

Prezident İlham Əliyev, həmçinin, vurğulayıb ki, sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar. Dövlət həmişə onların arxasında olacaq: "Amma əsas vəzifə ondan ibarətdir ki, bu yardım ədalətli bölünsün. Doğrudan da, bu yardıma ehtiyacı olan bu yardımı alsın. İmkanlı adamlar, yaxud da ki, sosial yardıma ehtiyacı olmayanlar bu yardımdan məhrum edilməlidir. Onlar özləri, ilk növbədə, bundan imtina etməlidirlər. Bu, onların sosial məsuliyyətinin yüksək səviyyədə olmasını göstərə bilər".

### Azərbaycanın iqtisadi nailiyyətləri beynəlxalq strukturlar tərəfindən də yüksək qiymətləndirilir



Əldə olunan iqtisadi uğurların nəticəsidir ki, Azərbaycan beynəlxalq strukturlar tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, həmin strukturların hesabatlarında Azərbaycan reytinqdə ildən-ilə irəliləyir. Prezident İlham Əliyev Rusiyanın "TASS" informasiya agentliyinə müsahibəsində ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar və bu nəticələrin beynəlxalq strukturlar tərəfindən qiymətləndirildiyini bildirib. Dövlət başçısı deyib: "Davos Dünya İqtisadi Forumunun son hesablamalarına əsasən, Azərbaycan qlobal rəqabətqabiliyyətliliyinə görə 35-ci yeri tutur. Elə həmin Davos Forumunun inklüziv inkişaf indeksinə görə isə inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tuturuq. Bizdən irəlidə yalnız 30 inkişaf etmiş ölkə və iki inkişaf etməkdə olan ölkə var. Yəni düşünürəm ki, Davos Dünya Forumunun verdiyi bu qiymət bizim nəyə nail olduğumuzu hər şeydən yaxşı nümayiş etdirir. Biz iqtisadiyyatın yüksək dərəcədə şaxələndirilməsinə nail olmuşuq, yüz minlərlə yeni iş yeri yaradılıb, Azərbaycanda işsizlik təxminən beş faiz səviyyəsindədir. Yoxsulluğu da xeyli azalda bilmişik. Bu gün yoxsulluq göstəricisi 5,4 faiz həddindədir. Bütün bunlar bizim son illərdə həyata keçirdiyimiz və sanballı səmərə vermiş sosial-iqtisadi siyasətin nəticəsidir".

### Sosial-iqtisadi inkişafda əlverişli infrastruktur faktoru

Təbii ki, sosial-iqtisadi inkişaf üçün əlverişli infrastrukturun olması da vacibdir. Son 15 ildə ölkəmizdə müasir tələblərə cavab verən infrastrukturun yaradılması əhalinin həyat səviyyəsinin, davamlı olaraq, yaxşılaşdırılmasına zəmin yaradan amillərdən biridir. Prezident İlham Əliyev Azərbaycanda infrastrukturla bağlı, praktiki olaraq, bütün məsələlər həll edildiyini vurğulayıb: "Bu gün keçdiyimiz yola nəzər salanda, görürük ki, Azərbaycanda infrastrukturla bağlı praktiki olaraq, bütün məsələlər həll edilib. Son 15 ildə biz 30-dan çox elektrik stansiyası istifadəyə vermişik və elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişik. Bu ilin sonuna qədər Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatacaq. Son illərdə biz hər il 100 min hektardan çox suvarılan torpağı istifadəyə veririk. Bu, kənd təsərrüfatının inkişafına güclü təkan verir. Bu il də daxil olmaqla, son 15 ildə Azərbaycanda 15 min kilometr yol çəkilib. Bunlar əhalini narahat edən əsas amillər idi. Bundan əlavə, 1 milyon 400 min iş yeri açılıb. Mahiyyət etibarilə işsizlik göstəricisi azalaraq, 5 faizə endirilib. Buna görə də, müraciətlərin dinamikası mövzuları dəyişir".

Bir sözlə, bu gün hər bir azərbaycanlı Prezident İlham Əliyevin yürütdüyü sosial-iqtisadi siyasətin müsbət təsirlərini hiss edir və ölkə başçısının Azərbaycanın sosial dövlət statusunun möhkəmləndirilməsi işinə öz töhfəsini verməyə çalışır. Vətəndaş-hakimiyyət münasibətlərinin yüksək səviyyəsi də ölkədə aparılan sosial siyasətin bundan sonra da uğurla davam edəcəyinə böyük inam yaradır. Həyata keçirilmiş sosial-iqtisadi siyasət nəticəsində əldə edilmiş uğurlar, xalqın ildən-ilə yüksələn rifahı Prezident İlham Əliyev siyasətinin mükəmməlliyini bir daha təsdiqləyir.

**RƏFİQƏ KAMALQIZI**

# Şərur rayonunun Yengicə kəndində içməli su şəbəkəsi istifadəyə verilib

***Muxtar respublikamızda insanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında içməli su təminatı xüsusi yer tutur. Bu günə qədər muxtar respublikanın 4 şəhərində və 12 kəndində içməli su şəbəkəsi qurulub. İnsan amilinə verilən qiymətin daha bir ifadəsi olan bu tədbir Şərur rayonunun Yengicə kəndini də əhatə edib, kənddə yeni içməli su şəbəkəsi qurulub.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 5-də Şərur rayonunun Yengicə kəndində içməli su şəbəkəsinin açılışı olub.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat verib ki, Yengicə kəndinin içməli su şəbəkəsinin tikintisinə "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində 2018-ci ilin fevral ayında başlanılıb. Su Şərur şəhərinə gələn ana xətdən götürülərək paylayıcı şəbəkəyə verilir. Layihəyə uyğun olaraq ərazidə diametri 63 millimetrdən 280 millimetrə qədər olan plastik borularla 30,9 kilometr içməli su xətti çəkilib, 894 evə su verilərək sayğac quraşdırılıb, 4638 sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub. Su şəbəkəsinin üzərində 4 yanğın hidrantı, qəza zamanı məhəllə xətlərinin bağlanması üçün müxtəlif diametrli 130 siyirtmə və 3 suboşaldıcı quraşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yengicə kəndində içməli su şəbəkəsinin və qədim hamamın istifadəyə verilməsi, eləcə də kəndin abad yaşayış məntəqələri sırasına daxil olması münasibətilə sakinləri təbrik edərək deyib: Ölkəmizdə qəbul olunmuş Dövlət proqramları uğurla həyata keçirilir. Azərbaycan hərtərəfli inkişaf edir, insanların yaşayış səviyyəsi yaxşılaşdırılır, kəndlərimiz abadlaşaraq müasir yaşayış məntəqələrinə çevrilirlər. Şərur rayonunun Yengicə kəndi də abad yaşayış məntəqələrinin sırasına daxil olmuşdur.

Ali Məclisin Sədri deyib: Şərur şəhəri və ətraf kəndlərin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin birinci mərhələsi - Şərur şəhərinin içməli su və kanalizasiya sistemləri ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilmişdir. Layihənin ikinci mərhələsi üzrə işlər davam etdirilmiş və Yengicə kəndində içməli su şəbəkəsi qurulmuşdur. Kənddə 30 kilometrdən artıq içməli su xətləri çəkilmiş, 900-ə yaxın su birləşmələri həyata keçirilmişdir. Bu gün Yengicə kəndinin 4 min 600-dən çox əhalisi keyfiyyətli içməli su ilə təmin olunub. Yaşayış məntəqələrinin içməli su təminatı mühüm məsələdir. Ona görə ki, su həyatdır, təmizlikdir, sağlamlıqdır. Əgər hansı yaşayış məntəqəsi təmiz içməli su ilə təmin olunursa, orada insanların sağlamlığı da qorunmuş olur. Bu amil nəzərə alınaraq ölkəmizdə içməli su layihələrinin həyata keçirilməsinə böyük diqqət və qayğı göstərilir. Muxtar respublikamızda da bu layihələr uğurla həyata keçirilir. Əksər rayonlarımızda artıq bu işlər başa çatdırılıb. Muxtar respublika əhalisinin 50 faizdən çoxu keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunur. Şərur rayonunda isə bu layihənin birinci mərhələsi başa çatdırılıb. Bu istiqamətdə işlər davam etdiriləcəkdir.

Ali Məclisin Sədri deyib: Muxtar respublikada içməli su şəbəkələrinin yenidən qurulması ilə yanaşı, eyni zamanda, suvarma su təminatının yaxşılaşdırılması istiqamətində də işlər görülür. Hazırda Kəngərli rayonunun Böyükdüz kəndində 600 hektara yaxın ərazidə yeraltı su şəbəkəsi qurulur və bu ilin sonunda istifadəyə veriləcəkdir. Bu ərazidə son illər aparılan işlər nəticəsində 2 min hektara yaxın əkinəyararlı torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Müasir içməli və suvarma su sistemlərinin qurulması insanların həyat səviyyəsinin yüksəldilməsinə və rahat yaşayışlarına xidmət edir.

Ali Məclisin Sədri bildirib ki, Yengicə kəndində vaxtilə yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, yolun yenidən qurulması, abadlıq işlərinin aparılması, bu gün isə içməli su şəbəkəsinin və qədim hamamın bərpadan sonra istifadəyə verilməsi kəndin simasını tamamilə dəyişmişdir. Kənd dayanıqlı təbii qaz və elektrik enerjisi, rabitə və sürətli internetlə təmin olunur. Yaradılan bu şərait kənd sakinlərinin rahat yaşayışına xidmət edir. Yengicə kəndinin qədim tarixi vardır. Bərpa işlərindən sonra istifadəyə verilən hamam, o cümlədən vaxtilə burada ilk dünyəvi məktəbin fəaliyyət göstərməsi kəndin tarixinin qədimliyindən xəbər verir. Azərbaycanın inkişafında, dövlətçiliyində bu kəndin yetirmələrinin xidmətləri olub.

Ali Məclisin Sədri bir daha sakinlərə təbriklərini çatdırıb, kənddə qurulanların qorunmasının, abadlığa, təmizliyə əməl olunmasının vacibliyini bildirib.

Yengicə kənd ağsaqqalı İlyas Kazımov çıxış edərək deyib: Muxtar respublikada geniş tikinti-quruculuq işləri aparılır. Naxçıvan günü-gündən gözəlləşir. Qədim diyarın inkişafı, müasirliyi qürur doğurur. Həyata keçirilən quruculuq tədbirləri Yengicə kəndini də əhatə edib, kənd müasir yaşayış məntəqəsinə çevrilib. Bu gün Yengicə kəndində şəhər rahatlığı yaradılıb. Sovetlər Birliyi dövründə heç bir kəndə içməli su sistemi çəkilməmişdi. Kəndimizin sakinləri uzun illər içməli su təminatından əziyyət çəkiblər. Lakin bu gün Yengicə kəndi 24 saat Dünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilir. Bu, müstəqil ölkəmizdə insan amilinə verilən ən yüksək qiymətdir. Həmçinin kəndimizdə XVIII əsrə aid olan memarlıq abidəsi - Yengicə hamamı ilkin görkəmi və qədim memarlıq quruluşu saxlanılmaqla bərpa edilib. Bir kəndin timsalında görülən bu işlər onu deməyə əsas verir ki, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan haqqındakı düşüncələri, arzuları reallığa çevrilib. Təbii ki, bütün bunlar da qurucu rəhbərin öz vətəninə, elinə bağlılığının nəticəsidir. İlyas Kazımov yaradılan şəraitə görə kənd sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Ali Məclisin Sədri Yengicə kəndinin içməli su şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salıb.

Sonra Ali Məclisin Sədri sakinlərlə söhbət edərək deyib: Quruculuq tədbirlərini o ölkədə həyata keçirmək mümkündür ki, orada sabitlik, iqtisadi inkişaf və seçilmiş düzgün yol vardır. Azərbaycanın yolu da Heydər Əliyev yoludur. Ölkəmiz Heydər Əliyev yolu ilə gedir. Dövlət də, əhali də öz üzərinə düşən vəzifələri yerinə yetirir. Nəticədə ölkəmiz güclənir, iqtisadi qüdrəti artır. Yengicə kəndinin torpaqları bərəkətli torpaqlardır. Kənddə içməli və suvarma su problemləri həll olunub. Ona görə də torpaqlar əkilməli, sakinlər ölkəmizin inkişafına və dövlətçiliyimizin möhkəmləndirilməsinə bundan sonra da öz töhfələrini verməlidirlər.

## Naxçıvanın folklor irsindən bəhs edən yeni kitab işıq üzü görüb

***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin elmi işçisi Nazirə Əsgərovanın "Folklorun poetik özünəməxsusluğu: mühit, janr, ənənə" adlı kitabı işıq üzü görüb.***




Akademiyanın Naxçıvan Bölməsinin informasiya şöbəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, yeni tədqiqat əsərində şifahi xalq ədəbiyyatının janrlarını öz elmi araşdırmalarında geniş tədqiq edən müəllifin müxtəlif illərdə qələmə aldığı məqalələri toplanılıb.

Kitabda Naxçıvanda şifahi xalq ədəbiyyatı sahəsində folklor mühitinin poetik özünəməxsusluğu, janrların səciyyəvi xüsusiyyətləri, habelə qədim diyarın xalq yaradıcılığındakı ənənəsi haqqında məlumatlar əksini tapıb. Nəşrdə, həmçinin dastanlar, atalar sözləri və məsəllər, bayatılar, nağıllar, laylalar, xalq oyunları və digər janrların bölgə mühitində yeri, xarakteri və tarixinə nəzər salınıb. Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədovun və həmin şöbənin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Çinarə Rzayevanın elmi redaktorluğu ilə çap olunan kitab Naxçıvan folklor mühitinin öyrənilməsi baxımından əhəmiyyətli elmi mənbədir.

# "Kaspi" kurslarının yekun qəbul nəticəsi 96% təşkil edib

*Sona Vəliyeva: "Uğurların səbəbi şagird-müəllim-valideyn əməkdaşlığının qurulmasıdır"*




Dünən Beynəlxalq Mətbuat Mərkəzində "Kaspi" Təhsil Şirkətinin 2017-2018-ci tədris ilindəki fəaliyyətinin yekunlarına həsr edilən tədbir keçirilib. Tədbirdə "Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri Sona Vəliyeva bu qurumun inkişaf mərhələlərindən, təhsil sahəsində həyata keçirilən layihələrdən və qazanılan uğurlardan danışıb. S.Vəliyeva 11 illik təhsil fəaliyyəti ilə məşğul olan şirkətin "Kaspi" Abituriyent kursları, "Kaspi" Liseyləri və digər xidmətlərinin nəticələri haqqında jurnalistlərə ətraflı məlumat verdi. Bildirdi ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanında "Kaspi" məzunu Nərmin Balakişiyeva 700 bal, Firudin Heydərov isə 695 bal toplayaraq, Prezident təqaüdçüsü olmuşdurlar: "Ümumilikdə isə Kaspi Abituriyent kurslarının yekun qəbul nəticəsi 96% təşkil etmişdir. 26 abituriyent 600-dən yuxarı, 72 abituriyent 500-dən yuxarı, 112 abituriyent 400-dən yuxarı, 158 abituriyent isə 300-dən yuxarı bal toplamışdır. Əldə olunan yüksək nəticələrin əsas səbəblərindən biri, bilik səviyyəsinə uyğun Dərəcə Qruplarının təşkil olunması və davamlı Təkrar Proqramının tətbiq olunmasıdırsa, digəri də şagird-müəllim-valideyn əməkdaşlığının qurulmasıdır". "Kaspi" Elmlər və Əhmədli filiallarının direktorları Rəsul Ağayev və Rövşən Abbasov tərəfindən Abituriyent hazırlığında builki nəticələr, qazanılmış uğurun səbəbləri, yeniliklər və növbəti il üçün qarşıda duran vəzifələr haqqında ictimaiyyətə geniş məlumat verdi. Tədbirdə, həmçinin, yüksək bal toplayaraq, "tələbə" adını qazanmış abituriyentlər və onların valideynləri çıxış etmiş, öz sevinclərini tədbir iştirakçıları ilə bölüşmüşlər. Sonda yüksək bal toplayan abituriyentlərə və onların müəllimlərinə "Kaspi" Təhsil Şirkəti adından hədiyyələr təqdim olunmuşdur.

**GÜLYANƏ**

# Vladimir Putin sentyabrın axırlarında Azərbaycana gələcək



Rusiya Prezidenti Vladimir Putin sentyabrın axırlarında Azərbaycana səfər edəcək. Bundan əlavə, sentyabrın 27-28-də Rusiya dövlətinin başçısı Tacikistanın paytaxtı Düşənbədə MDB ölkələrinin liderlərinin görüşündə iştirak edəcək. Oktyabrda Vladimir Putinin Özbəkistana səfəri planlaşdırılır. Rusiya dövlətinin başçısının beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov bu barədə "İzvestiya" qəzetinə məlumat verib.

AZƏRTAC xəbər verir ki, Y.Uşakovun sözlərinə görə, bu ilin sonuna qədər Rusiya öz ölkəsinin, İranın və Azərbaycanın prezidentlərinin iştirak edəcəyi üçtərəfli sammitə ev sahibliyi edəcək.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə keçirilib



***Sentyabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun iştirakı ilə ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib. Tədbirdə DQİDK-nın rəhbərliyi, eləcə də Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.***

DQİDK-dan AZƏRTAC-a bildiriblər ki, Komitə sədri Mübariz Qurbanlı ölkəmizdə mövcud dini durum, dini maarifləndirmə sahəsində həyata keçirilən tədbirlər və müzakirə olunacaq məsələlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, Dövlət Komitəsinin bütün respublika üzrə dini maarifləndirmə məqsədilə keçirdiyi tədbirlər öz bəhrəsini verir və bu fəaliyyət ardıcıl olaraq davam etdirilməlidir. Respublikamızın bütün şəhər və rayonlarında davamlı olaraq milli-mənəvi, dini dəyərlərimizin, həmçinin Azərbaycanın tolerantlıq və multikultural ənənələrinin təbliği və təşviqi üçün çox böyük işlər görülür. Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Məhərrəm ayının başlanması münasibətilə DQİDK-nın qəbul etdiyi tədbirlər planı və nəzərdə tutulan işlər barədə ətraflı danışıb. Bildirib ki, qəbul edilən plana əsasən Dövlət Komitəsi öz fəaliyyətini bir neçə istiqamətdə quracaq. Buraya maarifçilik, izahat işlərinin aparılması, monitorinqlər və s. daxildir. Eyni zamanda, Dövlət Komitəsi paytaxtda və bölgələrdə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə keçirilən qanvermə aksiyasına dəstək verəcək. Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov görülmüş işlər, Məhərrəm ayında planlaşdırılan tədbirlər və qarşıda duran vəzifələrdən danışıb, müvafiq tövsiyələrini verib.

Müşavirədə bölgə şöbə müdirləri dini durum, eləcə də görüləcək işlərlə bağlı məlumat veriblər. Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı digər məsələlər, o cümlədən dövlət-din münasibətləri, dövlətin dinə qayğısı, Azərbaycanın zəngin tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin qorunması və digər aktual məsələlərlə bağlı müzakirələr aparılıb. Qeyd olunub ki, Məhərrəm ayının başlanması ilə əlaqədar olaraq Aşura günü təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımız və qazilərimiz də anılmalı, bütün mərasim və tədbirlər qanun çərçivəsində təşkil edilməlidir. Müzakirə olunan məsələlərlə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# Mariya Zaxarova: "Rusiya ilə Azərbaycan arasında dialoq durmadan inkişaf edir"



***Rusiya Xarici İşlər Nazirliyi Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafına görə fərəh hissi keçirir. Bakı ilə bizim dialoqumuz durmadan inkişaf edir. Bu inkişafın çox böyük potensialı var. AZƏRTAC xəbər verir ki, RF XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirilən brifinqdə Azərbaycan Prezidenti İlham Əliyevin Soçiyə rəsmi səfərinin yekunlarını şərh edərkən söyləyib.***

İki ölkə arasında regional əməkdaşlığın səmərəli olmasını vurğulayan M.Zaxarova deyib: "Rusiya ilə Azərbaycanın regional əməkdaşlığının səmərəliliyini göstərən faktlar var. Rusiya-Azərbaycan münasibətlərində mühüm elementlərdən biri də RF subyektlərinin Azərbaycan Respublikası ilə çoxtərəfli əməkdaşlığıdır. Bu əməkdaşlıq Rusiya regionlarının hökumətləri ilə Azərbaycan hökuməti arasında sazişlər əsasında inkişaf edir. Hazırda 17 bu cür saziş qüvvədədir, daha bir neçə yeni saziş hazırlanır. Azərbaycan ilə regionlararası əlaqələrin səmərəliliyinə aşağıdakı faktlar dəlalət edir: Bakıda Dağıstanın, Tatarıstanın nümayəndəlikləri, "Ural" Ticarət Evi QSC, "Tatarıstan" Ticarət Evi, bir sıra regional aviaşirkətlərin ("Başkirsikiye avialinii", "Pulkovskiye avialinii", "Samarskiye avialinii", "Uralskiye avialinii"), Rusiyanın bəzi biznes qurumlarının, "AvtoVAZ"ın rəsmi dilerinin, "Xazar-Lada"nın, "Vostok-Servis" şirkətlər qrupunun nümayəndəlikləri açılıb.

M.Zaxarova xatırladıb ki, azərbaycanlı sahibkarlar Yessentuki şəhərində sanatoriya-kurort mərkəzinin, Krasnodar diyarında qida məhsulları istehsal edən zavodların tikintisinə sərmayə qoyublar, Kabarda-Balkar Respublikasında, Dağıstanda layihələr həyata keçirilir. Hər il təşkil olunan Rusiya-Azərbaycan Regionlararası Forumu məkanında yeni əməkdaşlıq layihələri hazırlanır və müzakirə edilir. Rusiya XİN-in rəsmi nümayəndəsi sonda deyib: "İndi növbəti, sayca doqquzuncu foruma hazırlıq gedir. Hazırlıq işləri başa çatandan sonra biz həmin forumun keçirilməsi barədə daha ətraflı məlumat verəcəyik".

# Problemlər içində: Paşinyanın apardığı siyasətin ziddiyyətləri və Rusiya səfəri

***Erməni KİV-ləri baş nazir Nikol Paşinyanın Rusiya səfəri ərəfəsində rəsmi İrəvanın narahatlığını ifadə edən məlumatlar yayır. Azərbaycan və Rusiya Prezidentlərinin Soçi görüşündən sonra Ermənistan rəhbərliyinin atmalı olduğu addımları müəyyənləşdirə bilməməsi ekspertlərin diqqətindən yayınmayıb. Onlar təsəvvür edə bilmirlər ki, Moskva ilə Bakının yaxın əməkdaşlığı necə baş tuta bilər? Bəs onda Ermənistan necə olsun? Çünki indiyə qədər ermənilər Azərbaycanın geosiyasi əhəmiyyətinin minimum olduğundan dəm vururdular. İndi isə Ermənistanın ən yaxın müttəfiqi Rusiya belə Bakı ilə strateji tərəfdaşlığı təsdiq edən onlarla sənəd imzalayır. Rusiya-Azərbaycan əməkdaşlığında digər sahələrlə yanaşı, hərbi-müdafiə və təhlükəsizlik məsələləri də ciddi yer tutur. Bütün bunlar Ermənistanın xarici siyasətinin tam yanlış meyarlar üzərində qurulduğunu göstərməklə bərabər, həm də bu ölkənin gələcəyini şübhə altına alır. Hazırda erməni ekspert dairələri bu kimi faktlar fonunda N.Paşinyana Kremldə hansı sualların veriləcəyi üzərində baş sındırır. Məsələnin bu aspekti üzərində geniş dayanmağı lazım bilirik.***




## Radikal mövqe: Ermənistan rəhbərliyinin yanlışları

Azərbaycan və Rusiya Prezidentlərinin Soçi görüşü və orada imzalanan sənədlərin məzmunu rəsmi İrəvanı əməlli-başlı təlaşa salıb. Erməni ekspert dairələri narahatlıqla vurğulayırlar ki, Moskva ilə Bakı getdikcə daha da yaxınlaşırlar. Və bu proses Ermənistan rəhbərliyinin Rusiya ilə münasibətlərdə xeyli dərəcədə problemlər yaratmaq istiqamətində atdığı addımların fonunda baş verir. Hətta Ermənistan siyasi dairələri "Azərbaycan yaranan boşluğu ustalıqla doldurur" kimi fikirlər səsləndirirlər.

Burada maraqlı olan erməni siyasi və ekspert dairələrinin yaranmış vəziyyəti özlərinin anlamında obyektiv qiymətləndirməsi deyil. Bu, heç belə də deyil. Maraqlı olan İrəvanın düşdüyü qeyri-müəyyən vəziyyətdən necə çıxa biləcəyinin geosiyasi parametrlərini müəyyənləşdirməkdir. Konkret olaraq "Nikol Paşinyan Kremldə Vladimir Putinlə müzakirələri hansı istiqamətlərdə apara bilər ki, uğurlu alınsın?" - sualı erməni cəmiyyəti üçün xüsusilə aktualdır. Sualın bu cür qoyuluşu təsadüfi deyil.

Erməni mətbuatı Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun birinci kurs tələbələri qarşısında çıxışı zamanı ifadə etdiyi bir fikrin ətrafında möhkəm hay-küy salıb. S.Lavrov ifadə edib ki, Moskva N.Paşinyanın Ermənistandakı hadisələrin inkişafı ilə bağlı görüşlərini eşitmək istəyir. Ermənistan jurnalistləri bu sözləri "daxili işlərə misli görünməmiş müdaxilə" kimi təqdim etməyə çalışırlar. Bu gülüncdür, çünki Moskva İrəvanla danışıq ritorikasını zərrə qədər də dəyişməyib. Ermənistan Kreml üçün müstəqil dövlət deyil, forpostdur. Forpostu da həmişə "xalça üzərinə güləşməyə yox, hesabat almağa" çağırırlar. Ermənilər buna alışıblar.

Ritorikanı bir kənara qoyub, fikirlərin geosiyasi məzmununa nəzər salsaq daha ciddi qənaət əldə edə bilərik. Moskva aydıncа İrəvandan mövqeyini konkretləşdirməsini, yəni bundan sonra Ermənistanın hansı geosiyasi istiqamətdə addımlayacağını bildirməsini tələb edir. Məsələ ondan ibarətdir ki, okeanın o tayından və Avropadan Ermənistana siyasətçilər və diplomatlarla yanaşı, generallar da təşrif buyururlar. Onların hamısı N.Paşinyanla nələrisə "pıçıldaşırlar". Bu proses 2008-ci il mart hadisələrinə görə Rusiyaya sadiq bir sıra şəxslərə qarşı cinayət işi qaldırılması fonunda baş verir.

Həmin şəxslər N.Paşinyana qarşı siyasi mübarizəyə başlayacaqlarını artıq bəyan ediblər. Məsələn, Robert Koçaryan. O bildirib ki, siyasətə qayıdır və məqsədi hakimiyyətə gəlməkdir. N.Paşinyan isə cavabında bəyan edib ki, R.Koçaryanın siyasi mübarizə üçün imkanı olmaya bilər, yəni həbs edilər. Bununla ekspertlər siyasi müstəvidə parçalanma ilə müşayiət olunan mübarizə prosesinə start verildiyini proqnozlaşdırırlar. Onun ilk savaş səhnəsinin sentyabrın ikinci yarısında olması nəzərdə tutulan İrəvan ağsaqqallar şurasına seçkidə özünü göstərəcəyini deyirlər. Ancaq N.Paşinyan ilk öncə Kremldə "xalça üzərində imtahan" verməlidir.

## Cavabsız suallar: rəsmi İrəvanın yaratdığı qeyri-müəyyənliklər

Çünki normal olaraq bütün bunlar Moskvanı düşündürür. Özü də daha çox iki aspektdə rəsmi İrəvanın planlarını özündən eşitmək istəyir. Birincisi ölkənin siyasi gələcəyi ilə bağlıdır. İkincisi təhlükəsizliyin hansı üsulla təmini məsələsidir. İlk baxışdan bu məsələləri Ermənistanın bir neçə il öncə həll etdiyi düşünülə bilər. Lakin məsələ ondan ibarətdir ki, Kremldə Nikol Paşinyanın həmin modeli dağıtmağa çalışdığı haqqında fikir formalaşıb. Moskva isə hər şeyi N.Paşinyanın dilindən eşitmək qərarına gəlib.

Bunun da səbəbi vardır. Ermənistanın yeni baş naziri primitiv formada riyakarlıq edir - o, Avropada Qərbi tərifləyir, Moskvada isə Rusiyanı əvəzedilməz strateji müttəfiq adlandırır. Bunların fonunda isə antirusiya mövqeli kadrları irəli çəkir, Qərb dövlətlərindən vəzifəli adamları qəbul edir, onlarla strateji xarakterli məsələləri müzakirə edir. Bu cür davranışlar nəticəsində N.Paşinyan "ilk şapalağı" Rusiyadan aldı. Baş nazir olanda onun ilk sayıqlamalarından biri qondarma "dqr"in danışıqlarda iştirak etməsi şərtini irəli sürməsi oldu. Çox keçmədi ki, ona anlatdılar ki, reallıq başqa cürdür. İndi səsini kəsib, ağalarının qərarını gözləyir.

Bu zərbədən sonra İrəvandakı meydanda növbəti sərsəmliyini etdi. O, mitinqdə çıxışı zamanı bəyan etdi ki, nə sənəd olsa, meydana gətirəcək və bir yerdə müzakirədən sonra qərar veriləcək. Bu, siyasətçinin kütlə psixologiyası ilə oynaması ilə yanaşı, həm də lider kimi "inqilab" rəhbərinin böyük qüsurlara malik olması əlamətidir.

Əvvəla, N.Paşinyanı meydan seçibsə, deməli, ona etibar edib. Əgər o, layiqli liderdirsə, tərəddüd etmədən kütlənin xeyrinə sənədin qəbul olunmasına nail ola bilər. Ancaq sözlərindən aydın olur ki, N.Paşinyanın özü özünə inanmır. Çünki haqsızdır. Anlayır ki, ona həqiqəti qəbul etdirəcəklər. Bu həqiqət isə Ermənistanın və havadarlarının işğalçı qüvvələrinin Azərbaycan ərazisindən rədd edilməsindən ibarətdir.

İkincisi, əgər kütlə razılaşdırılmış hansısa sənədə etiraz edərsə, bu, bütövlükdə erməni diplomatiyasının iradəsizliyi və peşə qüsurudur. Çünki danışıqlar masasında gücü çatmadığı hallarda küçədəki adamlardan dəstək istəyir, onlardan arqument gözləyir.

Üçüncüsü, Rusiya üçün məsələnin aktuallığı bütövlükdə rəsmi İrəvanın geosiyasi seçimi ilə bağlıdır. Əgər bu məsələdə konkretlik olmasa, Kreml münaqişənin həllində Ermənistanı müdafiə etməyəcək. Ən yaxşı halda vəziyyətin qeyri-müəyyən saxlanılmasına çalışacaq. Bu halda isə hansısa sənədin razılaşdırılması mümkün deyildir. Deməli, N.Paşinyan növbəti dəfə kütlə şüurunun manipulyasiyası ilə populist şəkildə məşğuldur. Bunda məqsəd nədən ibarət ola bilər?

Ekspertlər düşünürlər ki, N.Paşinyanı öz hakimiyyətini möhkəmlətmək daha çox maraqlandırır. Hazırda onun parlamentdə üstünlüyü yoxdur. Bu da istənilən vaxt baş nazirin istefasının tələb edilməsini gündəmə gətirə bilər. İndi N.Paşinyanın qrupu Ermənistanın konstitusiyasına yeni dəyişiklik etməyə çalışır. Oraya baş nazirin istefası qoyulmadan parlamentin buraxılması maddəsinin təsbit edilməsi nəzərdə tutulur. Ümumiyyətlə, Ermənistan konstitusiyası son zamanlar ən sürətlə dəyişdirilən kağız parçasına çevrilib. Serj Sarkisyan onu öz xeyrinə dəyişdi, indi də onu bu işdə ittiham edən N.Paşinyan konstitusiyanı öz xeyrinə dəyişmək niyyətindədir. Sabah prezident Armen Sarkisyanın və ya revanş üçün alışıb-yanan R.Koçaryanın hansısa dəyişiklik etmək fikrinə düşməyəcəyinə hansı keşiş təminat verə bilər?

Bunlar onu göstərir ki, N.Paşinyanın Moskvaya səfəri, əslində, Ermənistan üçün çox güclü təsiri ola biləcək hadisələrin reallaşması fonunda baş tutur. Bu mənada o, yalnız Rusiya rəhbərliyinə deyil, həm də başıbəlalı erməni xalqına sadiqlik testindən keçir. Yuxarıdakı müqayisələrdən görünür ki, N.Paşinyan ölkəni tam qeyri-müəyyən geosiyasi vəziyyətə gətirib çıxarıb. Onun düşdüyü bataqlıqdan çıxa bilməsi ehtimalı çox azdır. Çünki təcrübə göstərir ki, erməni baş nazir rasional, ədalətli və obyektiv düşünmək iqtidarında deyil. Onu əsiri olduğu şovinist xülyalar çox çətin vəziyyətlərə salır.

Bunlar aşağıdakı nəticəyə gəlməyə əsas verir: erməni siyasi-diplomatik şüuru müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında acizliyini nümayiş etdirir. Hələlik rəsmi İrəvan heç bir konstruktiv qərar qəbul edə bilmir. Həqiqəti qəbul etməyə onun siyasi və mənəvi iradəsi çatmır. Bütün imkanları ilə işğal siyasətinə başqa adlar axtarışının sonunun puç olduğunu anlamaq istəmir. Buna görədir ki, N.Paşinyan hara səfər edirsə-etsin - Moskvadan Berlinə, oradan Parisə və oradan da Vaşinqtona uçsun, uğursuz olacaq. Ermənistan haqsızdır, qərəzlidir, başqasının torpaqlarını zəbt etmək kimi qeyri-sivil yol seçib. Onu özündən başqa kimsə xilas edə bilməz. Xilas yolu isə səhvini etiraf edib, işğal etdiyi əraziləri tərk etməsindən başlayır. Əgər İrəvan bu yolu görə bilmirsə, günah özündədir.

***Newtimes.az***

# “Səhiyyədə aparılan uğurlu islahatlar əhalinin sağlamlığının təminatına istiqamətlənib”

“Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində, müşahidə olunan uğurlu inkişaf həyatımızın hər bir sahəsini əhatə etdiyi kimi, əhalinin sağlamlığının qorunması kimi vacib bir sahədən də yan keçməyib”. Bu fikirləri millət vəkili Musa Quliyev “Səs”-ə açıqlamasında bildirib. Onun sözlərinə görə, səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirib: “Səhiyyədə bir çox istiqamətlər üzrə islahatlar aparılır, dövlət proqramları reallaşır, səhiyyə infrastrukturunun təkmilləşdirilməsinə irihəcmli investisiyalar qoyulur və genişmiqyaslı işlər görülür. Müxtəlif aspektlərdən səhiyyədə aparılan uğurlu islahatlar əhalinin sağlamlığının təminatına, onun tam şəkildə dünya standartları səviyyəsində qurulmasına istiqamətlənib. Bu məqsədlə son illər səhiyyənin maddi-texniki bazası möhkəmləndirilib. Azərbaycan dövləti insanların sağlamlığını prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayır və hər il Cənab Prezidentin iştirakı ilə bir neçə səhiyyə müəssisəsinin açılışı olur”. Bu səhiyyə müəssisələrinin müasir tibb avadanlığı və cihazlarla təchiz olunduğunu bildirən millət vəkili ölkədə Avropa standartlarına uyğun ən son texnologiyalarla təchiz olunmuş diaqnostika mərkəzlərinin və xəstəxanaların əhaliyə lazımi xidmət göstərdiyini vurğuladı.




“Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının diqqətdə saxlanıldığını göstərir”, -deyən M.Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamları ilə səhiyyəmizin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşadığını bildirdi: “Artıq 4-cü ildir ki, əhalinin icbari dispanserizasiyası uğurla davam etdirilir. Uşaqların icbari dispanserizasiyası haqqında Azərbaycan Respublikasının Qanunu, eyni zamanda, “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” da dövlətin sosialyönümlü siyasətin davamıdır. Təbii ki, uşaqlar arasında xəstəliklərin vaxtında aşkar edilməsi məqsədi ilə icbari tibbi müayinələrin aparılması, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsi və müalicə tədbirlərin həyata keçirilməsi onların sağlam həyat yaşamasına müsbət təsirini göstərir”.

M.Quliyev bu gün ölkəmizdə səhiyyə sahəsində çalışan yüksək ixtisaslı kadrların olduğunu da vurğuladı. 2000-ci illərin əvvəllərində bununla bağlı qıtlıq yaşanılsa da, sonradan yüzlərlə gənclərimiz Türikiyədə təhsil alaraq, geri döndülər. Artıq Azərbaycan Tibb Universitetində 5 ildir ki, tələbələr rezidenturada təhsil alırlar.

Millət vəkili onu da qeyd etdi ki, səhiyyə sahəsində aparılan islahatların davamı olaraq, icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir: “Çünki icbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. Bildiyiniz kimi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb və 4 rayonda pilot layihələr həyata keçirilir. Nikaha daxil olmaq istəyənlərin tibbi müayinəsi də uğurla davam edir. Bütün bunlar dövlətin insanlara, onların sağlamlığına ayırdığı diqqətdir”.

Belə uğurların olduğu zamanda keyfiyyətsiz dərman peraparartarının satışa çıxarılmasının və qiymətlərin baha olmasının da qarşısı alınıb, - deyən millət vəkili diqqətə çatdırdı ki, dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə əlaqədar dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və bir sıra çatışmazlıqların aradan qaldırılması məqsədilə geniş tədbirlər həyata keçirilib. Belə ki, ölkə başçısının tapşırığının icrası olaraq bir çox dərmanların qiyməti nəzərə çarpacaq dərəcədə, 2 dəfə və hətta daha çox aşağı salınıb. Dərman preparatlarının qiymətinin tənzimlənərək aşağı salınması, həmçinin, dövlət müəssisələri tərəfindən də bu preparatların alışına müsbət təsir göstərməklə əhaliyə pulsuz təqdim edilən dərmanların çeşidinin artımına, həmçinin, bu siyahıya daha da keyfiyyətli və effektiv dərman preparatlarının daxil olunmasına şərait yaratdı. Bu isə, öz növbəsində, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına müsbət təsir göstərir.

Millət vəkili hazırda Pirallahı Sənaye Parkında iki dərman zavodunun inşasına başlanıldığını və yaxın iki ildə istifadəyə veriləcəyini qeyd etdi. Öz istehsalımız olacaq dərman pereparatları daha münasib qiymətə əhaliyə təqdim ediləcək.

Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün, siyasi sabitliyin təzahürüdür. Azərbaycan səhiyyəsinin istər dövlət, istərsə də özəl qanadı da uğurla davam edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Samir Şərifov: TAP-ın maliyyələşdirilməsi üçün maliyyə institutları ilə danışıqlar aparılır



“Trans-Adriatik” (TAP) boru kəməri layihəsinin maliyyələşdirilməsi üçün maliyyə institutları ilə danışıqlar aparılır. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında maliyyə naziri Samir Şərifov deyib. “Cənub Qaz Dəhlizi” layihəsinin icrası ilə bağlı layihədə iştirak edən bir neçə şirkət Avropa İnvestisiya Bankından kredit cəlb edir. TAP-ın maliyyəşdirilməsi ilə bağlı başqa maliyyə institutları ilə də danışıqlar aparılır. Güman edilir ki, 2019-cu ildə bununla bağlı nəticələr olacaq”, - deyə nazir qeyd edib.

## SOCAR üzrə işçilərin orta aylıq əməkhaqqı açıqlanıb




Keçən il SOCAR üzrə işçilərin orta aylıq əməkhaqqı 1037,30 manat təşkil edib, 2016-cı illə (968,10 manat) müqayisədə 69,20 manat və ya 7,15 faiz artıb. AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın 2017-ci il üzrə illik hesabatında bildirilir.

“Hesabat dövründə SOCAR üzrə cəmi hesablanmış əməkhaqqı və digər ödənişlər 628,14 milyon manat olub ki, bu da 2016-cı il ilə (595,68 milyon manat) müqayisədə 32,45 milyon manat və ya 5,4 faiz çoxdur. 2017-ci ildə işçilərə cəmi hesablanmış əməkhaqqı və digər ödənişlərin tərkibində vəzifə (tarif) maaşlarının məbləği 319,83 milyon manat və ya əməkhaqqı fondunda xüsusi çəkisi 51 faiz təşkil edib. Əməkhaqqı fondunun artmasının əsas səbəbi SOCAR-ın əməyin ödənilməsi sistemində aparılan təkmilləşdirilmələrdir”, - deyə hesabatda qeyd olunur.

## Rusiya və Çin liderləri Vladivostokda görüşəcəklər

Çin Xalq Respublikasının Sədri Si Cinpin 4-cü Şərq İqtisadi Forumunda iştirak etmək üçün sentyabrın 11-12-də Rusiyanın Vladivostok şəhərində səfərdə olacaq. AZƏRTAC xəbər verir ki, bunu Çin xarici işlər nazirinin köməkçisi Can Xanxuey bildirib. Si Cinpin səfər çərçivəsində Rusiyanın dövlət başçısı Vladimir Putin ilə ikitərəfli, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparacaq. Bu, Çin və Rusiya dövlət başçılarının cari ildə üçüncü görüşü olacaq. Qeyd edək ki, Şərq İqtisadi Forumu Rusiyanın ev sahibliyi ilə hər il Vladivostokda keçirilir.



## Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin payız sessiyasında ilk iclası keçirilib

Sentyabrın 7-dən Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin payız sessiyasında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda beş məsələyə baxılıb. Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlik barədə məlumat verib. Qeyd edilib ki, gündəliyə “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun, “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında sərhəd nümayəndələrinin/sərhəd komissiyalarının fəaliyyəti haqqında” Sazişin, “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair” Protokolun təsdiq edilməsi haqqında, “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi”ndə, “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında qanun layihələri daxildir. Komitə sədri bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında iqtisadiyyat və nəqliyyatla bağlı memorandum və sazişlər təsdiq edilib. Söhbət sırf hərbi qanunvericilik aktlarının, sazişlərinin, memorandumlarının və protokollarının təsdiq olunmasından gedir. Bu sənədlərdə müdafiə sahəsində hər üç dövlətin birgə, eyni zamanda, ikitərəfli əməkdaşlığının sahələri, məqsədləri, bu əməkdaşlığı həyata keçirən dövlət orqanları, həmçinin spesifik xüsusiyyətlər nəzərə alınıb.

Ziyafət Əsgərov, həmçinin “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi”ndə, “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında qanun layihələri barədə məlumat verib. Diqqətə çatdırıb ki, 2017-ci il dekabrın 1-də “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Qanun qəbul edilib. “Bu Qanunun qəbul edilməsində əsas məqsəd sağlam həyat tərzinin təbliğ edilməsi, vətəndaşlarımızın sağlamlığının qorunması, eyni zamanda, xüsusilə gəclərin sağlam böyüməsi və onların zərərli vərdişlərdən uzaq olması, ekologiyanın qorunmasıdır. Bu Qanunun tətbiqi ilə əlaqədar digər qanunverici aktlarına da dəyişikliklərin edilməsi nəzərdə tutulur. Belə ki, bu gün gündəliyə daxil olunan iki sənədin bir neçə maddəsində papiros sözü tütün sözü ilə əvəz edilir. Tütün məmulatlarının istifadəsi genişdir, tək bir papirosla məhdudlaşmır. Ona görə də bu Qanunla müəyyən olunmuş hallarda tütün məmulatlarının istifadəsi qadağan edilir”,-deyə Komitə sədri vurğulayıb. Komitə üzvləri gündəlikdəki məsələlərlə bağlı fikir mübadiləsi aparıblar. Gündəlikdəki bütün qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

## Axtarışda olan 25 nəfər saxlanılıb

Ötən gün respublikanın daxili işlər orqanları tərəfindən qeydə alınmış 124 cinayət faktından 24-nün üstü “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 10 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə, ümumilikdə, 25 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2 nəfər, borclu şəxs qismində axtarılan 9 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş iki yol-nəqliyyat hadisəsi nəticəsində beş nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 12 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 33 nəfər saxlanılıb.

# Azərbaycan şərabçılığı şöhrətini qaytarır

***Müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafının son 15 illik tarixi, bilavasitə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Bütün sahələrdə olduğu kimi, dövlət başçısının sərəncamları əsasında qeyri-neft sektorunun dinamik inkişafı ilə bağlı reallaşan tədbirlər də öz nəticəsini verir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahənin inkişafına yönəlib. Artıq kənd təsərrüfatı sahələrində, pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün və s. inkişafı ilə bağlı kifayət qədər nəticələr əldə olunub. Bu statistik göstəricilərdə belə əksini tapıb.***



Son illərdə əhalinin ərzaq məhsullarına tələbatının davamlı şəkildə ödənilməsi məqsədi ilə qəbul edilmiş dövlət proqramlarının icrası, aqrar sahənin ixracyönümlü məhsullarının istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər də ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına səbəb olub. Azərbaycan Respublikası Prezidentinin "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dövlət dəstəyi haqqında" Sərəncamı, "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" və s. bu sahənin inkişafına yeni yollar açıb. Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun inkişafı istiqamətində və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetirilməsinin nəzərdə tutulması da bu sahəyə göstərilən diqqətin daha bir nümunəsidir.

Aqrar-sənaye kompleksinin ən rentabelli və ən qədim sahələrindən biri də üzümçülük və şərabçılıqdır. Şərabçılıq tarixən ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə vermiş və aparıcı sahələrdən biri olmuşdur. Azərbaycan şərabları əla keyfiyyətinə görə şöhrət qazanmışdır. Statistik məlumatlar göstərir ki, keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodu və şərabçılıq məntəqələri sistemində 151 mindən artıq fəhlə və mütəxəssis işləyib, 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal edilirdi.

Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün son illərdə yaradılmış əlverişli şərait, onlara müvafiq dəstəyin gücləndirilməsi, o cümlədən, müəyyən edilmiş güzəştlər və subsidiyalar, bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin 2019-cu il yanvarın 1-dək torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad edilməsi ölkədə üzümçülüyün və şərabçılığın inkişafına təkan vermişdir. Ölkədə şərabçılığın davamlı inkişafının təmin edilməsi, o cümlədən, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, potensial imkanlardan səmərəli istifadə edilməsi, həmçinin, şərab istehsalına və ixracına marağın artırılması məqsədilə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" hazırlanmışdır.

Dövlətin aqrar sahənin inkişafına verdiyi dəstək üzümçülüyün və şərabçılığın inkişafına yeni yollar açıb. Görülən işlərin nəticəsi olaraq, artıq Azərbaycan şərabları Çin Xalq Respublikasının Urumçi şəhərində keçirilən "VI Çin-Avrasiya" Sərgisində mükafatlandırılıb. İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO və ölkəmizin Çindəki Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə qabaqcıl şərab istehsalçılarımız dünyanın nüfuzlu şərab şirkətlərinin iştirakı ilə keçirilən "İnternational Wine Challenge" müsabiqəsi çərçivəsində "Şanxay Beynəlxalq Şərab Yarışı"nda iştirak edib. Müsabiqə qaydalarına uyğun olaraq, Azərbaycanın şərabları dequstasiyadan keçirilib və yüksək mükafata layiq görülüb. Azərbaycan iqtisadiyyatının səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində qeyri-neft sektorunun inkişafının təmin edilməsi məqsədi ilə görülən işlər öz bəhrəsini verir. Aqrar-sənaye kompleksinin ən rentabelli və ən qədim sahələrindən biri olan şərabçılıq ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verəcək və öz şöhrətin qaytaracaqdır.

Bütün bunlar, həyata keçirilən islahatlar, dövlət proqramlarının icrası balanslaşdırılmış sosial-iqtisadi siyasətin təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

## Avropa Nevrologiya Akademiyası Azərbaycanı sentyabr ayının ölkəsi seçib

2011-ci ildə təsis edilmiş Nevroloqların Milli Assosiasiyası ölkəmizdə və xaricdə bir sıra konqres və seminarlar təşkil edib, beynəlxalq cəmiyyətlərin üzvlüyünə qəbul olunub, irimiqyaslı layihələrə qoşulub. Səhiyyə nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Nevroloqların Milli Assosiasiyası 2011-ci ildən Avropa Nevrologiya Akademiyasının üzvüdür. Hər il bu qurum tərəfindən təşkil edilən konfranslara azərbaycanlı nevroloqların elmi işləri təqdim olunur. 2012-ci ildə Assosiasiya Avropa Nevrologiya Akademiyasının Regional Təlim kursunun Azərbaycanda keçirilməsi üçün müraciət edib və 2014-cü ilin iyununda Bakıda üçgünlük təlim kursu təşkil olunub.



Avropa Nevrologiya Akademiyası bir neçə müddətdir ki, internet səhifəsində təqvim ilinin hər ayını cəmiyyətlə aktiv əlaqədə olan ölkələrdən birinə həsr edərək "Ayın ölkəsi" rubrikası yaradıb. Rubrika son aylarda Almaniya, Polşa, Portuqaliya, Slovakiya, Belorusiya və s. kimi ölkələrin nevrologiyasına həsr edilib. Sentyabr ayı isə Azərbaycan üçün ayrılıb və məqalədə Azərbaycan mədəniyyəti, o cümlədən qısa olaraq ölkəmizin görməli yerləri, mətbəxi və incəsənəti barədə məlumat verilib. Bundan başqa məqalədə Azərbaycan nevrologiyasının tarixi və hazırkı vəziyyəti, tibb, rezidentura təhsilləri barədə də məlumatlar yer alıb. Məqaləni Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun nevrologiya və klinik neyrofiziologiya kafedrasının müdiri, Azərbaycan Nevroloqlarının Milli Assosiasiyasının prezidenti Rəna Şirəliyeva və kafedranın assistenti, tibb üzrə fəlsəfə doktoru Rahim Əliyev hazırlayıblar.

## Səhiyyə Nazirliyində görüş keçirilib

Səhiyyə naziri Oqtay Şirəliyev İcbari Tibbi Sığorta Agentliyinin və McKinsey şirkətinin nümayəndələri ilə görüş keçirib. Nazirliyi mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə ölkəmizdə icbari tibbi sığortanın tətbiqi ilə bağlı dövlət başçısının tapşırığına əsasən bu sahədə səhiyyə sistemində həyata keçiriləcək islahatlar, səhiyyənin maliyyələşdirilməsi imkanları, gələn il üçün qarşıda duran əsas məsələlər və bütövlükdə ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə dair hazırlanacaq strateji yol xəritəsi ilə bağlı ətraflı müzakirələr aparılıb. Müzakirələrdə icbari tibbi sığortanın tətbiqi istiqamətində Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta Agentliyinin və McKinsey şirkətinin nümayəndələrinin birgə əməkdaşlığın vacibliyi xüsusi qeyd olunub.

## "Azəriqaz": Bu il 43 yaşayış məntəqəsi qazlaşdırılıb

Cari ildə 43 yaşayış məntəqəsinə təbii qaz verilib. "Azəriqaz" İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədilə İB tərəfindən təxirə salınmaz işlər həyata keçirilir. Belə ki, əhali istehlakçılarının mənzillərində istismar edilən istismar müddəti başa çatmış sayğaclar yenisi ilə əvəz olunur, yeni qaz kəmərləri çəkilir və istismara yararsız vəziyyətdə olan qaz tənzimləyiciləri yeniləri ilə əvəz edilir.

İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün "Azəriqaz" tərəfindən bu ilin yanvar-avqust ayları ərzində 2 141,1 kilometr yeni qaz kəməri quraşdırılıb, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 160,8 kilometr qaz kəməri əsaslı təmir olunub. Cari il ərzində aparılan tikinti-quraşdırma işləri nəticəsində Ağstafa, Şəmkir, Ağcabədi, Bərdə, Şəki, Göyçay, İsmayıllı, Ucar, Xaçmaz, Beyləqan, Lerik, Sabirabad, Salyan, Cəlilabad və Masallı rayonları üzrə 43 yaşayış məntəqəsi qazlaşdırılıb.

# Nikol Paşinyan erməni əsgərlərini Suriyaya göndərə bilməsə də, özünü çıxılmaz vəziyyətə salacaq

***Dünya düzənində baş verən hadisələr yeni-yeni proqnozlara yol açır və hazırda müharibə şəraitində olan bölgələr, bununla yanaşı, dövlətlər arasındakı soyuqluq, bir çox sanksiyaların tətbiqi diqqət mərkəzindədir. Müxtəlif ölkələrin, ələlxüsus, superdövlətlərin hadisələrə, bölgələrdə cərəyan edən proseslərə münasibəti, sözsüz ki, daha böyük təsir gücünə malikdir. Məsələn, Rusiya kimi hərbi gücə malik olan bir ölkənin müharibə şəraiti hökm sürən Suriyaya münasibəti həmin bölgənin taleyüklü məsələsi belə hesab oluna bilər. Hətta bəzi hallarda belə nüfuzlu dövlətlərin digər ölkələrin münasibətinə təsir imkanları da təkzib edilə bilməz.***

Son vaxtlar Suriyada yeni müharibə gözləntiləri heç də inkar edilə bilməz və sirr deyil ki, ruslar Suriyada Bəşər Əsəd rejiminin əleyhdarlarına qarşı hərbi əməliyyatlara hər an hazırdır. Məsələ burasındadır ki, Rusiyanın mövqeyini, nəinki dəstəkləməkdən çəkinən, hətta ruslara tamamilə arxa çevirən Ermənistanın yeni hakimiyyəti son vaxtlar əl-ayağa düşüb və erməni əsilli döyüşçülərini ruslarla bir yerdə döyüşəcəklərini bildirir. Daha dəqiq desək, Ermənistanın baş naziri Nikol Paşinyan erməni əsgərlərinin Rusiya bayrağı altında Suriyaya göndəriləcəyini bildirib. Rusiyanın həmin ərazilərdə müharibə ehtimalı müzakirə mövzusu deyil, amma "məxməri inqlab"dan sonra ruslara tamamilə məhəl qoymayan, hər imkan olduqda, Qərb diplomatiyasına meyilli olduğunu nümayiş etdirən ermənilərin indi də döyüşçülərini rus ordusuna birləşdirmək cəhdi, yeni vəziyyətə görə hər an mövqeyini dəyişə bilən erməni xisləti dünya ictimaiyyətini təəccübləndirməkdə davam edir.

Məlum olur ki, Ermənistan ordusunun hərbçiləri Rusiya Silahlı Qüvvələri tərkibində Suriyada Bəşər Əsəd rejiminin əleyhdarlarına qarşı hərbi əməliyyatlarda iştirak edəcək. Ermənistanın yeni hakimiyyətinin bu qərarı, hətta erməni KİV-lərində də öz əksini tapır. Daha doğrusu, Ermənistan mətbuatında bu məsələ müzakirə mövzusuna çevrilib desək, bəlkə də fikrimizi tam şəkildə ifadə edə bilmərik. Çünki erməni mətbuat səhifələrində bu məsələ müzakirədən çox, təşviqat xarakteri daşıyır və Rusiyaya yaltaqlanmaq niyyəti güdür. "Məxməri inqlab"dan sonra hakimiyyət kürsüsünü mənimsəyən Paşinyan hakimiyyəti indi rusların könlünü almaq üçün bu varianta əl atmaq qərarındadır. Bir sözlə, Ermənistanın yeni hakimiyyəti ruslara sədaqət nümyiş etdirmək üçün indi də öz ordusunun hərbçilərinin Rusiya silahlı qüvvələri tərkibində hərbi əməliyyatlarda iştirak edəcəyini bildirir.

### Vəhşilik, vandallıq, terrorçuluq bu işğalçı dövlətin silahlılarının alnına yazılıb və harda olsalar, vəhşiliklə müşayiət olunan qətliamlara imza atırlar

Əslində, ermənilərin Suriyada silahlılarının olması ilə bağlı fakt yenilik deyil. Ermənilərin Hələb və başqa şəhərlərdə müsəlmanlara, əsasən də, mülki şəxslərə qarşı qətliam törətməsi barədə dəfələrlə məlumatlar, foto və videogörüntülər dünyanın nüfuzlu media orqanlarında işıqlandırılıb da. Dünya ictimaiyyəti bu kadrların, foto və videogüntülərin şahididir. Vəhşiliklər, vandallıq, terrorçuluq bu işğalçı dövlətin silahlılarının alnına yazılıb və harda olsalar, vəhşiliklə müşayiət olunan qətliamlara imza atdıqları tarixən öz təsdiqini də tapıb.

"Ərəb baharı" dönəmindən sonra Suriyada 100-150 min ermənidən ibarət hərbi birləşmələrin olduğu heç də sirr deyil və onların missiyasının nədən ibarət olduğunu, xüsusilə, vurğulamağa da dəyməz. Soyğunçuluq, terror, qətliamlar, ələlxüsus, müsəlman əhalinin qətlə yetirilməsi erməni vandalları üçün göydəndüşmə şans hesab olunur. Məhz bu mənada, müsəlman ölkələrində müharibə şəraitinin olması erməni terror təşkilatları, daşnaksütun üçün əlverişli şərait hesab olunur desək, yanılmarıq. Çünki bu terror təşkilatlarının bir nömrəli missiyası, məhz müsəlman əhalinin qırılması hesab olunur.

### Ermənistanın yeni hakimiyyətinin qərarı böyük ehtimalla daxildə etirazlara səbəb ola bilər

Nikol Paşinyanın erməni əsgərlərinin Rusiya bayrağı altında Suriyaya göndəriləcəyini bildirməsi, nəinki dünya ictimaiyyəti, hətta erməni ictimaiyyəti tərəfindən də birmənalı qarşılanmır. Ola bilsin ki, dünya ictimaiyyəti buna müşahidəçi mövqeyi ilə kifayətlənə də bilər. Amma Paşinyanın bu hərəkətinin kütləvi etirazlarla qarşılanmayacağı hələ sual altındadır. Bir sözlə, yeni hakimiyyətin belə bir qərarı böyük ehtimalla daxildə etirazlara səbəb ola bilər.



Öz ordusunda xidmət etməkdən boyun qaçıraraq, intihar cəhdlərinə belə cəhd edən erməni hərbi qulluqçularının gedib Suriyada döyüşəcəyinə Paşinyan özü inanırmı? Bu manipulyator, görəsən, Suriyaya döyüşə kimi göndərəcəyi barədə heç düşünübmü? Rusiya ilə münasibətlərdə yaranmış soyuqluğu aradan qaldırmağa çalışan Nikol bəs belə bir qərardan sonra Suriyaya göndərməyə əsgər və döyüşçü tapmasa, o zaman Rusiya qarşısında hansı durumda qalacağının fərqindədirmi?

Doğrudur, Qərb diplomatiyasının oyuncağı olan Paşinyan "məxməri inqlab"dan sonra, daha doğrusu, hakimiyyət kürsüsünü ələ keçirdikdən sonra ona baş nazir kimi vəzifəni bağışlayanlara borclu olduğunu dərk edərək, daim xidmətlərində duracağı vədi ilə çıxış etdiyindən və Rusiyaya arxa çevirdiyindən bu vaxta qədər böyük qardaş, havadar hesab etdikləri, ətəyindən tutduqları rusları qəzəbləndirdiyinin fərqindədirmi? İndi, məhz bu səbəbdən, erməni əsgərlərinin Rusiya bayrağı altında Suriyaya göndəriləcəyini bildirməsi də, Rusiya ilə münasibətlərdə yaranmış soyuqluğu aradan qaldırmağa xidmət edir. Lakin Ermənistan əhalisinin bu qərarla razılaşmayacağını və heç Qarabağa əsgəri xidmətə göndərmədikləri balalarını Paşinyana qurban verməyəcəklərini nəzərə alsaq, Paşinyanın tezliklə hansı duruma düşəcəyini təxmin edə bilərik. Digər tərəfdən, Rusiya kimi əsrlərlə mövcud olan bir ölkəni bir neçə ay öncə, hakimiyyət kreslosunu ələ keçirən bir avantüristin aldada biləcəyi də heç inandırıcı görünmür. Əksinə, çox güman ki, ruslar Ermənistanın yeni hakimiyyətinin bu qərarını heç hesaba belə almır və bunu təəssübkeşlik və sədaqət deyil, növbəti hiylə, erməni xisləti kimi qəbul edir. Nəticədə, Nikolun bu gedişi fayda verməək əvəzinə, daxili auditoriyada yaratmaq istədiyi öz imicinin itməsini, yalandan formalaşdırdığı demokrat, erməni xalqına xidmət edən təəssübkeş maskasının yırtılmasını sürətləndirir. Ermənistan, daha doğrusu, ölkənin yeni baş naziri erməni əsgərlərini Suriyaya göndərə bilməsə də, özü-özünü çıxılmaz vəziyyətə salacaq. İndi Paşinyanın vəziyyəti bataqlıqda çabalayan və çabaladıqca, boğulmaq təhlükəsi daha da artan adamı xatırladır.

***İnam HACIYEV***

## "Jurnalistlər binası"nın qarşısında "cib" tipli dayanacaq məntəqələri təşkil edilir

"Jurnalistlər binası"nın qarşısında "cib" tipli dayanacaq məntəqələri təşkil olunur. Bakı Nəqliyyat Agentliyindən AZƏRTAC-a bildirilib ki, paytaxtda sərnişinlərin müntəzəm marşrut xətt avtobuslarından rahat və təhlükəsiz istifadəsi üçün zəruri infrastrukturun təşkili işləri davam edir. 45 ünvanda Azərbaycan Dövlət Tikinti Normaları nəzərə alınaraq "cib" tipli dayanacaq məntəqəsinin təşkilinə başlanılıb. Nəzərdə tutulan ünvanlar vətəndaş müraciətləri və Bakı Nəqliyyat Agentliyi mütəxəssislərinin apardığı təhlillər əsasında müəyyən edilib. İşlərə ilkin olaraq Yeni Salyan yolu 22 ünvanında jurnalistlər üçün yeni salınan yaşayış kompleksinin qarşısında və yolun əks tərəfində start verilib.

## Maliyyə naziri: "Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsi üçün məsləhətçi cəlb olunmalıdır"

Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsi ilə bağlı məsləhətçi cəlb edilməlidir. AZƏRTAC xəbər verir ki, bu barədə maliyyə naziri Samir Şərifov jurnalistlərə açıqlamasında deyib. Nazir qeyd edib ki, ilkin olaraq bankın biznes strategiyası hazırlanmalıdır və bankın alınmasında maraqlı şirkətlər var. Bankın bazarda rolu, yeri, bazarda xüsusi çəkisi, biznes modeli ilə bağlı strategiya hazırlandıqdan sonra şirkətlər öz qərarlarını verə bilər.

## Azərbaycan-Pakistan parlamentlərarası münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Senatının sədr müavini senator Səlim Mandivala ilə görüşüb. Səfirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Pakistan parlamentlərarası sıx əlaqələrin məmnunluq doğurduğu vurğulanıb. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsində parlamentlərin önəmli rolu qeyd olunub. Pakistan Senatının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və təcavüzkar Ermənistanı qınayan qətnaməsi yüksək qiymətləndirilib.



Senator Səlim Mandivala Azərbaycanın Pakistan üçün qardaş ölkə olduğunu deyib, iqtisadi, ticari, hərbi-texniki, müdafiə, enerji, turizm sahələrində əməkdaşlığın daha da möhkəmləndirilməsinin, birbaşa aviareyslərin açılmasının, parlamentlərarası dostluq qruplarının əlaqələrinin daha da genişləndirilməsinin zəruriliyini ifadə edib. Görüşdə, həmçinin ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xidmət edəcək birgə layihələrin icra olunması və qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Bu gün Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür

***8 sentyabr dünyada Jurnalistlərin Beynəlxlaq Həmrəyliyi Günü kimi qeyd olunur. Bu tarixi gün 1958-ci ildə, hitlerçilər tərəfindən 1943-cü il sentyabrın 8-də həbsxanada edam olunmuş çex jurnalisti Yulius Fuçikin şərəfinə təsis edilib. Xatırladaq ki, Fuçikin "Edamqabağı reportaj" kitabı 70 dilə tərcümə edilib və dünyanın bir çox ölkələrində nəşr olunub.***



Həmrəylik günü münasibətilə bir çox ölkələrdə festivallar, konfranslar, jurnalistlərin qurultayları və digər tədbirlər keçirilir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur. Dünya mətbuatında yeri, çəkisi və sözü olan Azərbaycan jurnalistləri də öz uğurları ilə bu bayramı qeyd edirlər. Müasir dövrümüzdə Azərbaycan mətbuatı dünya mətbuatının bir parçası kimi uğurla inkişaf edir. Söz və məlumat azadlığının təmin olunması sahəsində həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində, Azərbaycan kütləvi informasiya vasitələrinin sayına görə, MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur.

### AZƏRBAYCAN HAKİMİYYƏTİ ÖLKƏDƏ SÖZ VƏ MƏTBUAT AZADLIĞININ BAŞLICA TƏMİNATÇISIDIR

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, azad mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılıb. Ölkəmizdə söz və məlumat azadlığını məhdudlaşdıran maneələr aradan qaldırılıb, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək, beynəlxalq standartlara uyğunlaşdırılıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli Fərmanı ilə Nazirlər Kabinetinin nəzdində mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilmiş, bununla da, mətbuata tətbiq edilən senzura aradan qaldırılmış, milli mətbuatın inkişafı yolunda yeni perspektivlər açılmışdır. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 2003-cü ildə Azərbaycan Jurnalistlərinin I Qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən Mətbuat Şurası yaranmışdır.

Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsatinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatlar demokratikləşmə prosesinin mühüm tərkib hissəsidir.

### "BU GÜN ÖLKƏMİZİN ARTAN İMKANLARI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN, O CÜMLƏDƏN, MİLLİ MƏTBUATIMIZIN İNKİŞAFI ÜÇÜN KOMPLEKS TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİNƏ ŞƏRAİT YARATMIŞDIR"

Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada, dördüncü hakimiyyət hesab olunan kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir.

Azərbaycanda kifayət sayda fəaliyyət göstərən peşəkar və nüfuzlu qələm sahiblərinin olması bir faktdır. Yeri gələndə, media mənsublarının bir araya gəlib onların həmrəylik nümayiş etdirməsinin də şahidi olmuşuq. Bu, əsasən, Vətən, azərbaycançılıq, Dağlıq Qarabağ problemi ilə bağlı məsələlərlə bağlı olub. Dövlətçiliyimizin və cəmiyyətimizin inkişafı məsələlərində KİV mənsublarının çox böyük qisminin eyni mövqedən çıxış etməsi, çox sevindirici bir haldır.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək səviyyə milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladğı kimi, "Bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır".

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşmə prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində bildirib: "Azərbaycanda həm demokratik, həm də sosial-iqtisadi inkişaf paralel gedir. Buna görə, hesab edirəm ki, bizim cəmiyyətimizdə islahatlar təkamül yolu ilə aparılır və dərinləşir. Siyasi və iqtisadi islahatlar daha da dərinləşməlidir. Söz azadlığı Azərbaycanda tam təmin edilibdir, heç bir məhdudiyyət yoxdur".

**Zümrüd BAYRAMOV**



# Gəncədə YAP fəalları ilə görüş keçirilib

Dünən Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov YAP Gəncə şəhər təşkilatının məsul işçiləri və partiya fəalları ilə görüş keçirib. YAP Gəncə şəhər təşkilatının qərargahında keçirilən görüşdə çıxış edən şəhər icra başçısı bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu, zəngin siyasi və dövlətçilik təcrübəsinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü və ən monolit siyasi təşkilatdır. Niyazi Bayramov qeyd edib ki, Azərbaycanda ictimai nüfuzuna görə, Yeni Azərbaycan Partiyası ilə müqayisə edilə biləcək digər partiya mövcud deyil.

Təşkilatın sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev YAP Gəncə şəhər təşkilatının fəaliyyəti dövründə topladığı mütərəqqi iş təcrübəsindən danışıb. Üzvlərinin sayının 41 minə çatdığını bildirən Naqif Həmzəyev təşkilatın ötən müddət ərzində siyasi və ideoloji cəhətdən daha da mətinləşərək, yeni iş təcrübəsi ilə zənginləşdiyini qeyd edib.

AMEA Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, YAP Gəncə şəhər təşkilatı qadınlar şurasının sədri, Milli Məclisin deputatı Pərvin Kərimzadə, partiya fəallarından Hüseyn Budaqov, Teymur Əliyev və başqaları çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, sıralarının kəmiyyət və keyfiyyət baxımından zənginləşməsindən bəhs ediblər.

**RÖVŞƏN**

# Mərkəz sədri: "Paşinyanın xanımı "döyüşlə kəşfiyyat" aparır"

***"Paşinyanın həyat yoldaşı Anna Akopyanın "Haykakan Jamanak" qəzeti vasitəsilə "döyüşlə kəşfiyyat" aparır". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***



Onun sözlərinə görə, Anna Akopyan baş nazir N. Paşinyanın həyat yoldaşı olmaqla yanaşı, eyni zamanda "Haykakan Jamanak" (Erməni vaxtı) qəzetinin idarəedicisidir: "Hesabat ayı ərzində A.Akopyan "Haykakan Jamanak" qəzetinin siyasi proseslərə, dövlət idarəçiliyinə müdaxiləsini artırmış, özü müxtəlif proseslərə yön verməyə çalışmış və Fransada səfərdə olmuşdu. Fransaya səfərini keçən ildən hansısa ailəvi dostunun bunlara Fransaya ödənilmiş səfər dəvəti göndərməsi ilə əlaqələndirdi. A.Akopyanın tələskənliyi, bəlkə də səriştəsizliyi bu məsələdə daha öndə oldu. Ermənistanın Fransadakı səfirinin avqust ayında Fransa rəhbərliyində həminin məzuniyyətdə olması xəbərdarlığı A.Akopyanın səfər niyyətindən daşındırmadı. Bir neçə erməni icma təmsilçiləri ilə görüşdü, qalan vaxtını turist kimi gəzintiyə sərf etdi. Erməni icması ilə keçirdiyi görüş diqqət çəkən olsaydı, ya A.Akopyanın özü, ya da Fransadakı erməni icmasının təmsilçiləri məlumat yayardılar. Buna rast gəlmədik.

A.Akopyanın "Haykakan Jamanak" qəzeti vasitəsilə "döyüşlə kəşfiyyat aparması" açıq şəkildə göz qabağındadır:

I. General mayor Manvel Qriqoryanın həbsxana kamerasından çəkilmiş foto şəklini qəzetində yerləşdirdi. M.Qriqoryanın yazıq vəziyyəti şəkildə təsvir olunmuşdu. Həbsxanada şəkil çəkilməsi qadağan edildiyi üçün sosial şəbəkələr hay-küy qaldırdılar. Ədliyyə naziri və Ermənistan polisinin rəisi izah verməkdən müxtəlif yollarla yayındılar. Sonradan Ermənistan Təhlükəsizlik Xidmətinin rəhbəri A.Vanetsyan şəklin onun yüksək rütbəli zabiti tərəfindən çəkildiyini etiraf etdi. A.Vanetsyan bu zabitin günahı sübut olunsa, onun haqqında cinayət işi başlanacağını, digər variantda isə işdən azad olunacağını bildirdi. Ehtimal ki, M.Qriqoryanın çətin durumda olan şəklini Anna Akopyan çəkdirib və bununla erməni oliqarxlarını acınacaqlı həbsxana həyatı ilə qorxudur. Məqsədi isə oliqarxlardan həm dövlət büdcəsinə, həm də şəxsi büdcələrinə pul almaqdır. "Şəxsi büdcə" ifadəsini təsadüfən işlətmədik. Eks-prezident R.Köçəryan Serj Sərkisyanın qardaşı Saşik Sərkisyanın evindən götürülmüş pulun yalnız 50 faizinin rəsmən qeydiyyata alındığını bildirdi. 50 faizinin hara getdiyi bəlli deyil.

II. "Haykakan Jamanak" qəzeti ayrı-ayrı iri biznesmenlər və şirkətləri eks-prezident R.Köçəryanla biznes əlaqəsində olmaqda şantaj edir. Guya o şirkətlərdə R.Köçəryan paya malikdir. "Zvartnots" aeroportu bunu açıq şəkildə inkar etdi və mühasibatlıq sənədlərini təqdim etməyə hazır olduğunu bildirdi.

III. A.Akopyanın rəhbərlik etdiyi "Haykakan Jamanak" qəzeti eks-prezident R.Köçəryanın mediamaqnat olması ilə bağlı məlumatlar yaydı. Ermənistanın bütün aparıcı KİV-nin R.Köçəryan tərəfindən satın alındığını bildirdi. Ermənistanın ən populyar saytlarından olan News.am saytı və digər KİV-lər bunu inkar etdilər. A.Akopyan mətbuatı bu qaydada şantaj edib, öz nəzarəti altına keçirmək istəyir".

# Naxçıvanda yol-nəqliyyat infrastrukturu yenilənir və müasirləşir





*Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə avtomobil yollarının bərpası, yenidən qurulması və yeni yol şəbəkələrinin çəkilməsi istiqamətində ardıcıl tədbirlər görülüb. Dahi Öndərin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən ölkə Prezidenti Cənab İlham Əliyev, bütün sahələrə olduğu kimi, bu sahənin də inkişafını prioritet istiqamət kimi müəyyənləşdirib.*

Dövlət başçısının imzaladığı sərəncamlara, qəbul olunan dövlət proqramlarına uyğun olaraq, yol-nəqliyyat infrastrukturunun yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenilənməsi və müasirləşdirilməsi istiqamətində işlər uğurla davam etdirilməkdədir. Regionların, həmçinin, kənd və qəsəbələri birləşdirən avtomobil yolların, yolayırıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da aparılan genişmiqyaslı quruculuq işləri zamanı yol tikintisinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınmış, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilmiş və yeni körpülər tikilmişdir. Muxtar respublikada müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları istifadəyə verilmiş, yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalına nail olunmuşdur. Son illər Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan Yol-İstismar İdarələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikada yol tikintisinin səmərəli təşkilinə şərait yaratmış və müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunmuşdur.

Son illər muxtar respublikanın qonşu ölkələrlə iqtisadi əlaqələri daha da genişləndirilmiş, beynəlxalq yük və sərnişin daşımalarında əhəmiyyətli rol oynayan magistral yollar yenidən qurulmuşdur. Belə ki, 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları yenidən qurularaq istifadəyə verilmişdir. Ötən müddət ərzində, ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq, Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, Çeşməbasar-Boyəhməd, Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq, istismara verilmişdir. Kəndlərin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də, kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Naxçıvanda yol tikintisi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək, Naxçıvan şəhərini digər şəhərlərlə birləşdirən gözəl və çox keyfiyyətli yollar salındığını vurğulamışdı: "Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz, Naxçıvan-Sədərək yolları ən yüksək standartlara cavab verir... Kənd yollarının tikintisi də uğurla gedir və bu proses davam etdiriləcək".

Muxtar Respublikada qış aylarında yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunan texnikaların saz vəziyyətə gətirilməsi, ehtiyat hissələri ilə təminat magistral və ucqar kəndlərə hərəkətin fasiləsizliyini təmin etmişdir. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, muxtar respublikada mövcud olan 274 kilometr dövlət əhəmiyyətli və 1199 kilometr yerli əhəmiyyətli avtomobil yollarında qarlı-çovğunlu günlərdə belə hərəkətin intensivliyi tam təmin edilmişdir. Bu sahədə reallaşdırılan layihələrin əsas hədəfi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir.

Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq, 5 yaşayış məntəqəsini əhatə edən Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, 20 yaşayış məntəqəsini əhatə edən Çeşməbasar-Boyəhməd, 13 kəndi əhatə edən Hacıvar-Vayxır-Sirab və 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq, istismara verilmişdir.

Muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi də yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinə, eləcə də, kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur. Təkcə bir faktı qeyd edək ki, son illər muxtar respublikada kəndlərarası və kənddaxili avtomobil yolları da daxil olmaqla, salınan avtomobil yollarının həcmi sovet dövründə salınmış avtomobil yollarının həcmindən dəfələrlə çoxdur.

Görülən işlər, bir daha deməyə əsas verir ki, həyata keçirilən infrastruktur layihələr nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir.

***Zümrüd BAYRAMOVA***

## Müəllimlərin işə qəbulu üzrə elektron sənəd qəbuluna başlanılır

Sentyabrın 8-dən 2018-2019-cu tədris ili üçün Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müddətli müqavilə ilə müəllimlərin işə qəbulu üzrə elektron sənəd qəbuluna başlanılır. Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, müddətli müqavilə ilə müəllimlərin işə qəbulu prosesində iştirak etmək üçün builki müsabiqəyə qatılan namizədlər şəxsi səhifələrinə daxil olmaqla vakant yer seçməli və elektron ərizələrini təsdiqləməlidirlər. Bu prosesə ötənilki müsabiqədə iştirak etmiş namizədlər də qatıla bilərlər. Onlar miq.edu.az saytı vasitəsilə yenidən qeydiyyatdan keçdikdən sonra vakant yer seçib ərizələrini təsdiqləməlidirlər. Müddətli müqavilə ilə müəllimlərin işə qəbulu zamanı namizədlər iki vakant yer seçmək hüququna malikdirlər. Müəllimlərin işə qəbulu üzrə ötənilki müsabiqədə uğur qazanmış müəllimlər də ikinci iş yerində müddətli müqavilə ilə işləmək məqsədilə bu prosesdə iştirak edə bilərlər.

Müddətli müqavilə ilə işə qəbul zamanı həvəsləndirmə tədbirləri tətbiq olunan ümumtəhsil müəssisələrinə keçid balı 30, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumtəhsil müəssisələrinə isə musiqi, təsviri incəsənət və fiziki tərbiyə fənləri üzrə 42, digər fənlər üzrə 48 bal müəyyənləşdirilib. Bakı şəhərinin ümumtəhsil müəssisələrinə ibtidai sinif müəllimlərinin müddətli müqavilə ilə işə qəbulu isə Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən həyata keçiriləcək. Qeyd edək ki, müddətli müqavilə ilə müəllimlərin işə qəbulu üzrə elektron sənəd qəbulu sentyabrın 9-dək davam edəcək.

## SOCAR-ın işçilərinin sayı azalıb

SOCAR-da çalışan işçilərin sayı azalıb. AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın 2017-ci il üzrə illik hesabatında bildirilir. Qeyd edilir ki, 2017-ci ildə SOCAR-da çalışan işçilərin orta siyahı sayı 50 min 122 nəfər təşkil edib və bu da 2016-cı ilə (50 min 933 nəfər) müqayisədə 811 nəfər azalıb. 2017-ci il ərzində şirkət üzrə işçilərin orta siyahı sayının 811 nəfər (1,6 faiz) azalmasının səbəbi SOCAR-ın idarəetmə mexanizminin təkmilləşdirilməsi, onun fəaliyyətinin səmərəliyinin daha da artırılması məqsədilə aşağıdakı struktur dəyişikliklərinin həyata keçirilməsi ilə əlaqədardır.

## Təhsil Nazirliyində UNICEF-in nümayəndələri ilə görüş olub

Sentyabrın 7-də təhsil nazirinin müavini Məhəbbət Vəliyeva "Azərbaycanda əlilliyi olan uşaqlar üçün keyfiyyətli inklüziv təhsilin genişləndirilməsi" layihəsi ilə bağlı UNICEF-in təhsil məsələləri üzrə məsləhətçisi Leyla Həsənova və layihənin beynəlxalq eksperti Piter Qrayms ilə görüşüb. Görüş zamanı iki il ərzində icra olunacaq layihə çərçivəsində reallaşdırılması nəzərdə tutulan məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Altı Ölkənin Qadınları TÜRKAP-da birləşdi

*QHT fəalları Türk Dünyası Qadın Platformunun İstanbulda keçirilən I Forumunda bir araya gəldilər*



***Türkiyənin Qadın Radiosu olan "Lady Radio"nun təşkilatçılığı ilə 6 ölkədən olan dövlət və hökumət nümayəndələri, QHT fəalları Türk Dünyası Qadın Platformunun İstanbulda keçirilən I Forumunda bir araya gəldilər.***



Türkiyədən foruma Avcılar Bələdiyyəsinin sədri Handan Toprak, millət vəkilləri Jale Nur Süllü, Aylin Cesur, Qırğızıstan millət vəkili Elvira Surabaldiyeva, azərbaycanlı parlamentarilər Jalə Əliyeva, Kamilə Əliyeva, Hesablama Palatasının auditoru Mehriban Alışanova, Şimali Kiprin millət vəkili Jale Refik Rogers ve Qazaxıstandan, Özbəkistandan gələn 50-yə yaxın fəal qadın qatıldı. Türkiyədə 6 ölkəni birləşdirən beynəlxalq qurumu azərbaycanlılar yaratdı! Türk Dünyası Qadın Platformunun qurucuları İlhamə Novruzova və Zaid Nəhmətov iştirakçıları salamladıqdan sonra, Ankara Klubu Qadın Qolları Başkanı Handan Kayakökünün təqdimatı ilə üzv ölkənin aktual qadın mövzularına dair informasiya paylaşımı oldu. Çıxışçılar Platformula bağlı gözləntilərini bildirdilər. Forumun davamında 6 ölkə təmsilçisindən ibarət olan İdarə Heyəti seçildi. Avcılar Bələdiyyə Başkanı Handan Toprak Türkiyə adından İH-ə qəbul edildi. 30 iştirakçı Qurucu Üzv, millət vəkilləri isə Fəxri Üzv olaraq, Niyyət Protokolunu imzaladılar. Sonra KaDer Başkanı Nuray Karaoğlu və "Qadın Cinayətlərini Dayandıracağıq" Platformunun Baş Təmsilçisi Gülsüm Kavın moderatorluğu ilə "Qadın Lobbiçiliyi" və "Qadına Şiddət" panelləri başlandı. Ankara Barosunun ilk qadın Başkanı Sema Aksoy, Prof.Dr. Aygün Attar, Lady Radionun PR meneceri Ayşe Gönen, Lefkoşa Lions Klub Başkanı Anıl Meryem Bilir, Prof.Dr. Nodira Latipova, "Təmiz Dünya" İB-in sədri Mehriban Zeynalova və digərlərinin iştirakı ilə faydalı müzakirələr aparıldı.

TÜRKAPın bundan sonrakı hədəflərinə gəlincə, ortaq sosial-mədəni tədbirlərin təşkili, qadın dayanışmasının sərhədlərini genişləndirmək, türk dünyası qadınları arasında dialoqu artırmaq, tarixdən gələn qardaşlıq bağlarını daha da gücləndirməkdir. TÜRKAPın Qurucu Başkanı İlhamə Novruzovanın açıqlamasına görə, 5 dekabr 2018 - ci il tarixində Qadın Haqları Günündə Türk dünyasının bütün ölkələrindən olan 200 qadının iştirakı ilə Genel Forum reallaşacaq və möhtəşəm mərasimdə "İlin Qadını" mükafatları sahiblərini tapacaq.

***Zümrüd***

## Sədaqət Vəliyeva: "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Avrasiyanın geostrateji mərkəzinə çevrilməkdədir"



"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Avrasiyanın geostrateji mərkəzinə çevrilməkdədir. Çünki Şuranın üzvü olan Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan yerləşdikləri regionların lider dövlətləri kimi iri transmilli layihələrin və geniş əməkdaşlıq münasibətlərinin kəsişdiyi nöqtədə yerləşirlər". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva "Səs"-ə açıqlamasında bildirib.

Sədaqət Vəliyeva bildirib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası üzvlərinin Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqaz, Qara və Aralıq dənizləri regionlarında sıx əməkdaşlıq və böyük səmərəlilik bəxş edən nəqliyyat və karbohidrogen layihələrinin müəllifləri olmaları onlara geoiqtisadi dividendlərlə yanaşı, geosiyasi üstünlüklər də gətirir: "Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmiryolu, Şimal-Cənub və Şərq-Qərb, "Yeni İpək Yolu" layihələrinin reallaşdırılması, eyni zamanda, iri ticarət limanlarının və nəqliyyat terminallarının inşa edilməsi Yaponiyadan və Çindən gələn yüklərin, Xəzər hövzəsinin neftqaz ehtiyatlarının Avropaya daşınması və nəqlini təmin edir, bundan sonra da edəcək. Perspektivdə isə Özbəkistan və Macarıstan kimi ölkələrin də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına qoşulması əməkdaşlıq üçün daha geniş imkanlar yarada bilər. Bütün bunlar isə, yalnız səmərə və fayda gətirəcək. Çünki Şuranın üzvləri əməkdaşlıq üçün etnik, yaxud dini faktoru deyil, qarşılıqlı hörmət və maraqların uzlaşdırılması prinsiplərini əsas götürürlər".

"Dünyada cərəyan edən prosesləri təhlil etdikdə, aydın olur ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının uğurlu perspektivi var" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, nəqliyyat-kommunikasiya, həmçinin, neftqaz layihələrinin tam reallaşdırılmasından sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Avrasiya məkanında ciddi faktora çevriləcək. Bundan faydalananlar isə daim sülhün və əməkdaşlığın tərəfdarları olacaqlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "YARAT" növbəti rus filmini təqdim edəcək

Sentyabrın 13-də "YARAT" Müasir İncəsənət Mərkəzində rusiyalı rejissor Artyom Temnikovun "Qan" filmi nümayiş ediləcək. AZƏRTAC xəbər verir ki, xronometrajı 106 dəqiqə olan ekran əsəri bir-biri ilə əlaqəni bərpa etmək üçün mürəkkəb mənəvi yollar keçən iki qardaş haqqındadır. Hadisələr müasir Moskvanın mərkəzində cərəyan edir. Gənc rəssam Valeri Romeyev küçələrdə portret çəkməyə məcburdur. Ukraynanın şərqində yerləşən kiçik bir şaxtaçılar şəhərində yaşadığı qayğısız uşaqlıq illəri qurtardıqdan sonra o, amansız meqapolisdə özünü sınamaq üçün əlindən gələni edir. Kömək tapmaq ümidi ilə Romeyev, ata yurdunu çoxdan tərk edib ailəsi ilə əlaqəsini kəsmiş uğurlu iş adamı olan böyük qardaşını - Vadimi axtarır. Film rus dilində nümayiş olunacaq.

## "Ov icazələrinin sayı ovçuların sayından asılı deyil"



***Sentyabrın 7-də Ekologiya və Təbii Sərvətlər Nazirliyində ov mövsümü və Azərbaycanda ovçuluğun təşkilinə həsr olunmuş mətbuat konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova ovçuluqla bağlı nazirliyin "Qaynar xətt"inə çoxsaylı müraciətlərin daxil olduğunu deyib.***

Nazirliyin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə bildirib ki, mayın sonundan ov mövsümü açıq elan edilib. Ov mövsümü elan edilərkən heyvanların quşların bioloji xüsusiyyətləri, yayılması, çoxalması, artması dövrü nəzərə alınır. İlk olaraq Dağıstan turunun ovlanmasına icazə verilib və avqustun sonunadək davam edib. Avqustun 24-dən etibarən isə göyərçinkimilərin, bildirçinin ovuna başlanılıb. Sentyabr ayından ilin sonunadək çöl donuzları və dovşanların ovlanmasına da icazə veriləcək. Oktyabrın ortalarında su-bataqlıq quşların ovuna başlanacaq. Ov mövsümü fevralın sonu, martın əvvəlində bağlanacaq. Yerli və xarici ovçular ən çox quş ovuna maraq göstərirlər.

"Ovçuların sayı hər il artır. Bəzən ov icazələrinin sayının artırılması tələb edilir. Lakin bu icazələrin sayı, ovçuların sayına və istəyinə uyğun müəyyən edilmir. Bu, ovlanan fauna növünün sayından asılıdır və elmi araşdırmaların nəticəsinə uyğun müəyyən edilir. Azərbaycan vətəndaşları ov icazələrini nazirliyin yerli qurumlarından və ərazi ekologiya şöbələrindən ala bilərlər. Xarici vətəndaşlar isə müvafiq şirkətlərin vasitəçiliyi ilə departamentə müraciət etməlidirlər. Vasitəçilik funksiyasını yerinə yetirən şirkətlər isə xarici vətəndaşların Azərbaycan qanunlarına riayət edəcəyi barəsində öz üzərlərinə müəyyən öhdəliklər götürməlidirlər. Xarici vətəndaş qanunu pozduğu halda 2000 manata qədər cərimələnir, onun ölkədən çıxarılması üçün müraciət edilir və şirkətlə işləməyə məhdudiyyət qoyulur. Ümumilikdə, mövsüm başlayandan 10 şirkət xarici vətəndaşlar üçün ovun təşkilinə görə müraciət edib və onların hamısına müsbət cavab verilib:", - deyə departament direktoru qeyd edib.

O, deyib: "Hazırda nazirliyin respublikanın müxtəlif bölgələrində 10 ovçuluq təsərrüfatı var. Lakin onların maddi-texniki təchizatı, ovçulara göstərdiyi xidməti bizi çox da qane etmir. Buna görə də nəzərdə tutmuşuq ki, yaxın gələcəkdə həmin təsərrüfatlar bu sahədə böyük təcrübəsi olan şirkətlərin istifadəsinə verilsin. Ovçuluq təsərrüfatları ovun təşkilində təcrübəsi olan şirkətlərin istifadəsinə verilə bilər. Əsas məqsədimiz Azərbaycanda sivil qaydada ovun təşkilinə nail olmaq, ətraf mühitə ziyan vurulmasının qarşısını almaqdır. Ov mövsümü başlayandan hələ ki, qanun pozuntularına rast gəlinməyib". Departament direktoru xüsusi mühafizə olunan təbiət ərazilərində, yaşayış məntəqələrinin, təsərrüfat sahələrinin yaxınlığında, parklarda ov edilməsinin qadağan olunduğuna da diqqətə çatdırıb.

# Ermənistan Rusiya-Qərb arasında çabalayır

## *Paşinyan Rusiyaya "günahkar şagird" kimi gedir*

***"Ermənistanın getdikcə ağır durumda olması küçə "demokratı" Nikol Paşinyanın uğursuz və savadsız siyasətinin nəticəsidir". Bu fikri söyləyən erməni ekspertləri, onu da vurğulayırlar ki, Ermənistanda hökumət dəyişsə də, erməni siyasətinin məntiqi dəyişmədi. Hazırda cəmiyyət iki yol arasında qalıb - bir tərəfdən Serj Sarkisyan iqtidarının yaratdığı korrupsiya sisteminin fəsadları, digər tərəfdən isə, hələ də küçə məntiqi ilə hansısa radikal dəyişikliklər etmək istəyən N.Paşinyan bəlası. Bütövlükdə, Ermənistanın idarəetmə fəlsəfəsi iflasa uğrayır".***

Erməni ekspertlər yazırlar ki, oliqarxları neytrallaşdırmaq lazımdır, əks halda, demokratiya və inkişaf olmayacaq. Ancaq bunun mexanizmini bilən yoxdur. N.Paşinyanın da həmin sahədə səriştəsiz olduğunu "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Sarukyan bəyan etməklə yanaşı, bildirib ki, N.Paşinyan onunla məsləhətləşməli idi. Ekspertlərə görə, bütün bunlar N.Paşinyanın oliqarxlarla mübarizədə acizliyindən qaynaqlanır və bu proses onun öz başında çatlaya bilər.

Eyni zamanda, ekspertlərin sözlərinə görə, Paşinyanın kadr dəyişikliyi etməsi ilə heç bir yenilik müşahidə edilməyib. Daxili və xarici siyasətdə hansısa yenilik gözə dəymir. Yeni təyin olunan qubernatorların vədləri göstərir ki, onlar Sarkisyanın kadrlarından elə də fərqlənmirlər. Bunun əvəzində, köhnə komanda ilə yenilər arasında gərginliyin yüksəldiyi müşahidə edilir.

Deməli, Ermənistan rəhbərliyi, sadəcə, islahatları nədən başlayacağını bilmir. Burada, ilk olaraq, xarici siyasət prioritetlərində dəyişiklik edilməlidir. Xarici siyasətdən təcavüzkarlıq münasibətləri çıxarılmalı və qonşu dövlətlə beynəlxalq hüquq normaları çərçivəsində münasibət qurmağın yolu öyrənilməlidir. Yalnız bundan sonra başqa sahələrdə real islahatlardan bəhs etmək mümkündür.

Beləliklə, işğalçı ölkədə baş verənlər bir gerçəkliyi ortaya qoyur: Ermənistan daxildən və xaricdən əzilir! Rəsmi İrəvanın apardığı siyasət forpost ölkəni çox pis vəziyyətə salır. İndiki mərhələdə Ermənistan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb. Hər tərəfdə yaranmış problemlərin altında əzilən ölkənin hansısa çıxış yolu tapacağı məlum deyil. Belə bir şəraitdə Ermənistanı hər hansı seçki sistemi də xilas edə bilməz. Həm də, ona görə ki, bu ölkənin qonşu dövlətlərlə münasibəti kökündən yanlışdır. Ermənistan təcavüzkar kimi qalmaqla uğurla inkişaf edən dövlət ola bilməz. Müasir beynəlxalq münasibətlər sistemində bu, prinsipcə, mümkün deyil. Zaman-zaman həmin münaqişə öz təsirini göstərəcək və Ermənistan daha ağır vəziyyətlərə düşəcək.

### Paşinyan Rusiyaya "günahkar şagird" kimi gedir

Xüsusilə də, bu ağır vəziyyəti Paşinyan Moskva səfəri zamanı daha çox hiss edir. Politoloq Fikrət Sadıqovun sözlərinə görə,





Yerevanla Moskvanın münasibətləri heç vaxt bərabərhüquqlu tərəfdaşlıq münasibətləri olmayıb və olmayacaq da: "Ermənistan Rusiya üçün müəyyən siyasi məqsədlərə alət olub. Bu gün Ermənistan Avropa bazarlarına çıxış imkanlarına malik deyil, Cənubi Qafqazdan keçən bütün layihələrdən məhrumdur. Yerevan bu gün yalnız Moskvaya ümid edir. Rusiya hər zaman Ermənistanın sponsoru, donoru və himayəçisi olub. Paşinyanın sentyabrın 8-də Moskvaya səfəri, müəyyən mənada, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri və imzalanmış sənədlər fonunda Yerevanda yaranan təşvişlə əlaqədardır. Paşinyan yaxşı başa düşür ki, ona ünvanlanan çoxlu suallar var. O, bu suallara cavab verməli, öz loyallığını təsdiq etməli və sübut etməlidir ki, öz siyasi istiqamətini dəyişməyib. Lakin onun bunu edə biləcəyi sual altındadır. Sirr deyil ki, Ermənistan-Rusiya münasibətlərinin səviyyəsi əhəmiyyətli şəkildə azalıb".

F.Sadıxov vurğulayıb ki, bu fonda Azərbaycan və Rusiya arasında qarşılıqlı münasibətlərin səviyyəsi yüksələcək: "Reallıq ondan ibarətdir ki, artıq Bakı ilə Moskva arasında çoxillik strateji tərəfdaşlıq forması mövcuddur. Azərbaycan Prezidentinin Rusiyaya səfəri zamanı bir çox sahələrdə ikitərəfli əməkdaşlığı təsdiq edən və genişləndirən bir sıra sənədlər imzalandı. Rusiyalı ekspertlər və deputatlar açıq şəkildə bəyan edirlər ki, Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsl müttəfiqidir. Bu, ikitərəfli əməkdaşlığın əhəmiyyətinin ciddi şəkildə qəbul edilməsi deməkdir. Bu fonda Paşinyan Rusiyaya "günahkar şagird" kimi gedir".

Belə olmasaydı, iqtidara gələn Nikol Paşinyan hökuməti bir tərəfdən, köhnə rəhbərlik ilə hesablaşmağa çalışarkən, digər tərəfdən, beynəlxalq mühitdə özünə yer etməyə çalışan kimi görünür. Baş nazir N.Paşinyanın tez-tez dilə gətirdiyi "Ermənistanın klassik xarici siyasətinin davam etdiriləcəyi" istiqamətindəki bəyanatlarına baxmayaraq, Qərb ilə daha yaxın əlaqələr qurmaq istədiyi də diqqətlərdən qaçmır.

Bütün bu hadisələr Ermənistanın Rusiya-Qərb oxunda tarazlıq yaratmağa çalışdığını göstərir. Moskvadan gözlənilən hər hansı bir təzyiqlə üzləşmək istəməyən Ermənistan rəhbərliyi Rusiya əleyhinə olmayan ifadələr işlətməməklə yanaşı, NATO və Aİ vasitəsilə Qərb ilə yaxınlaşmağa çalışır. Rəsmi Yerevanın xarici siyasətindəki bu dəyişikliyin yaradacağı durum isə Cənubi Qafqaz ölkələri üçün əhəmiyyətli nəticələrə səbəb ola bilər. Rusiyanın, xüsusilə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə təsir edə biləcək bu dəyişikliklər yaxından izlənilməlidir.

### Paşinyanın həm daxili, həm də xarici siyasətlə bağlı atdığı bütün addımları ona qarşı işləyir

Siyasi ekspertlər Ermənistanın baş nazirinin həyata keçirdiyi xarici siyasətin aydın olmadığını vurğulayaraq, söyləyirlər ki, o, bir tərəfdən, Azərbaycanla Dağlıq Qarabağ məsələsində danışıqlara gedəcəklərini, digər tərəfdən, qondarma rejimin danışıqlarda iştirakını, eyni zamanda, ölkəmizə qarşı güc nümayiş etdirmək istədikləri ilə bağlı anlaşılmayan bəyanatlar səsləndirir. Bütün bunlar onun mövqesiz olduğunu və anlaşılmaz siyasətini müəyyən müddət davam etdirəcəyini göstərir. Məhz bu səbəbdən də, Paşinyanın həm daxili, həm də xarici siyasətlə bağlı atdığı bütün addımları ona qarşı işləyir. Elə götürək Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı problemin Paşinyan kimi siyasətçilərlə danışıqlar aparmaq və Ermənistan tərəfindən hansısa kompromis əldə etmək mürəkkəb məsələdir. Çünki düşmən ölkə beynəlxalq hüquq normalarına uyğun siyasət həyata keçirmir.

### Qabil Hüseynli: "Paşinyan hakimiyyəti də anlayır ki, Azərbaycan istənilən an hərb yolu ilə torpaqlarını qısa zamanda işğaldan azad etmək iqtidarına malikdir"

Sözügedən məsələyə münasibət bildirən politoloq Qabil Hüseynli isə qeyd edib ki, Ermənistanda gərginlik getdikcə artır. Onun sözlərinə görə, qarşıdurmanın başında duranlar Sarkisyanla Koçaryandır: "Demək olar ki, Sarkisyanın güclü partiyası var və parlamentdə çoxluğu qoruyub-saxlayır. Koçaryan isə yeni partiya qurur və təşkilatlanır. Koçaryanın ətrafında müəyyən qruplaşmalar, oliqarxların böyük bir hissəsi, hətta Dağlıq Qarabağ ermənilərinin də böyük əksəriyyəti var. Bu, o qədər də kiçik bir güc deyil, Ermənistanın özündə də təşkilatlanma aparılsa, böyük bir gücə çevrilə bilərlər. Məhz bu səbəbdən, Paşinyan Merkellə görüşdükdən dərhal sonra böyük bir vahimə içində Dağlıq Qarabağa gəldi və orada görüşlər keçirməyə başlayıb. Məqsədinin guya orduda müəyyən işlərlə tanışlıq olduğunu bildirsə də, əslində, o, qondarma respublikanın siyasi rəhbərliyi ilə məsləhətləşmələr aparıb. Onlara Koçaryana və Sarkisyana qoşulmamaq barədə xəbərdarlıq edir. Yeni Dağlıq Qarabağla bağlı nigaranlıqlarını aradan qaldırmaq üçün orada müəyyən postlara öz adamını gətirməsi fikrini də nəzərdən keçirir. Bir sözlə, Dağlıq Qarabağın ona arxadan zərbə vurmaması üçün müəyyən siyasi layihələr üzərində işləyir. Amma onu demək mümkündür ki, bu saat Paşinyana qarşı müxalifətin əsas ruporu Koçaryandır. Koçaryan dayanmadan televiziyalara, radiolara və saytlara müsahibələr verir. Yəni Koçaryan Paşinyanı hər şeydə, o cümlədən, Amerikanın agenti olmaqda günahlandırır. Bir sözlə, ağlına nə gəlirsə, onların hamısını uydurub deməklə məşğuldur. Bunlar isə, erməni xalqını, sözsüz ki, çaş-baş salır. Bütün bunlar Paşinyanın özünü də narahat edir. Bu narahatlığın səbəbi də onu Dağlıq Qarabağa gətirib çıxarıb. Bir sözlə, gələn ilin may ayında keçiriləcək parlament seçkilərinin gərgin olacağı göstərilir. Bu gərginlik, hətta Ermənistanda ciddi qarşıdurmalara gətirib çıxaracaq. Bir də Paşinyan hakimiyyəti də anlayır ki, Azərbaycan istənilən an hərb yolu ilə torpaqlarını, qısa zamanda, işğaldan azad etmək iqtidarına malikdir. Bunun üçün ölkənin iqtisadi potensialı da imkan verir".

Sonda Azərbaycanın bütün sahələr üzrə qüdrətli və güclü orduya malik olması ilə bağlı N.Paşinyanın "Exo Moskvı" radiostansiyasına müsahibəsində Paşinyan Ermənistanın Azərbaycanla müharibəsindən qorxduğunu və ölkəsinin bir dövlət kimi, öz sərhədlərini qorumaq iqtidarında olmadığını açıq-aşkar etiraf edib.

Beləliklə, Azərbaycan Ordusunun gücünə yaxşı bələd olan Paşinyan müharibə ehtimalını istisna etmir və bu anda baş nazir "çoxəsrlik qardaş və dost Rusiya"nın qoltuğu altına sığınır. Göründüyü kimi, Ermənistanın baş naziri ölkəsinin döyüş meydanında Azərbaycanla baş-başa gələ bilməyəcəyini anlayır və təbii ki, Moskvaya edəcəyi səfəri zamanı Paşinyan Ermənistanın "yeganə qoruyucu mələyi" qismində Rusiyadan kömək ediləcəyi ümidi ilə sentyabrın 8-ni səbirsizliklə gözləyir.

**A.SƏMƏDOVA**

# Molla Nəsrədinçilər və qadın hüquqları

***1906-cı ildən başlayaraq, Tiflisdə, sonralar Təbriz və Bakıda 25 il müddətində Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşr olunan Azərbaycanın məqalə, felyeton, satirik hekayə lətifə karikaturalardan ibarət olan ilk satirik jurnalı olan "Molla Nəsrəddin", Qərbin humanizm və maarifçilik hərəkatının və kapitalizm dəyərlərinin təsiri ilə XX əsrin əvvəlində Rusiya və Azərbaycanda olan mürəkkəb ictimai-siyasi şəraitdə meydana çıxmışdır. Bu jurnalın yaranmasında, həmçinin, rus və erməni dillərində çıxan inqilabi bolşevik mətbuatın ("Hökumət", "Bakinski raboçi", "Təkamül", "Yoldaş") təsiri olmuşdur. "Mola Nəsrəddin" jurnalı müsəlman aləmində və Rusiyada geniş yayılmışdır.***

"Molla Nəsrəddin" məktəbində təmsil olunan ziyalılar xalqı maarifçilik yolu ilə çarizmə qarşı mübarizəyə qaldırır. Şərqdə müsəlman xalqını qəflətdə saxlayan cəhalət və mövhumata qarşı çıxaraq, xalqı itaətdə saxlayan mövcud rejimin (bəylərin və ruhanilərin hakimiyyətinin) iç üzünü açıb göstərir, cəmiyyətdə məişət zəminində olan geriliyi (savadsızlıq, uşaq tərbiyəsində olan qüsurlar, ətalət və tənbəllik, oğurluq) və ruhanilərin timsalında təbliğ edilən dini tənqid edir, dünyada gedən sosial-siyasi proseslərə ayıq gözlə baxmağa dəvət edir, eyni zamanda, Azərbaycan ərazisində mövcud cəhalət rejimini dəstəkləyən çar Rusiyasının Qafqazda azadlıq uğrunda mübarizə aparan etnik-müsəlman xalqlarına qarşı soyqırımı ilə əlaqədar milli siyasətini, həmçinin, Osmanlı hökumətinin, İranın despotik hakimiyyətinin üsulidarəsini, beynəlxalq imperializmin müstəmləkəçilik siyasətini, xüsusilə, ingilislərin Şərqi və Hindistanı soyub-talamaq niyyətlərini tənqid edir və eyni zamanda, xalqı maariflənməyə, modernləşməyə dəvət edərək, inkişaf etmiş Avropa xalqının elmi-texniki inkişafını nümunə göstərirdilər. Xalqı əsarətdə saxlamaq üçün mövhumatı, cahilliyi yayan və ağa-kölə idarəçilik üsulları üzərində qurulan müstəmləkəçi rejim, maarifçiliyi, elmi, təhsili, insan hüquqlarını təbliğ edən milli ziyalıların fəaliyyəti ilə tədricən məhvolma təhlükəsi ilə üzləşirdi. Buna görə də, çar hökuməti və onun yerli hakimiyyətini təmsil edən bəylər, ruhanilər bu jurnalın fəaliyyətini dayandırmağa çalışır və ona təzyiqlər edirdilər.

Jurnalın ən ciddi problemlərindən biri də qadın azadlığı problemi idi. Qadının azadlığı, onu ətalət və hüquqsuz şəraitdə saxlayan dəyərlərə qarşı yönəlmişdi. Qadının cəmiyyətdə sosial statusu ənənəvi mədəni dəyərlər üzərində formalaşmışdır. Bu dəyərlər, qadının təhsil almasına, öz şəxsi həyatını sərbəst şəkildə müəyyənləşdirməsinə, sosial həyatda iştirak etməsinə, öz hüquqlarını tələb etməsinə imkan vermir və əksinə olaraq, qızların savadsız olmalarına, zorla qoca kişilərə ərə verilmələrinə, döyülmələrinə, istismar olunmalarına şərait yaradırdı. Lakin bütün bunlar ənənəvi müsəlman cəmiyyətində baş verirdi. Halbuki qadınların cəmiyyətdə rolunu və yerini müəyyənləşdirən bu dəyərlər, islam dinin dəyərlərinə zidd idi. Buna görə də, Molla Nəsrəddinçilər, əslində, islama qarşı deyil, onun pərdəsi altında gizlənərək, öz mənafeyini hər şeydən üstün tutan ruhanilərə və onların yaydıqları mövhumata qarşı çıxırdılar. Kişilərlə bərabər bu istibdadın altında əzilən qadınlar, kişilərə nisbətən daha çox öz insanlıq hüquqlarından məhrum olurdular. Çünki daima cəmiyyətin ağır problemləri qadınların həyatına daha çox təsir göstərir.

İslam maarifçiliyi də bu dövrlərdə baş qaldırmışdır. Mirzə Əbu Turab, axund Mir Mahmud Kərim, Mircəfər, axund Molla Ruhulla Məmmədzadə və başqaları kimi, bəzi ruhanilər, din alimləri də qadın hüquqları, onun təhsili uğrunda mübarizə aparmış və cəmiyyətdə qadınların mövcud dözülməz vəziyyətinin islama zidd olduğunu göstərmişlər.

Lakin Molla Nəsrəddinçilərin çoxu problemin kökünü islamın dəyərləri ilə əlaqələndirirdilər. Onların qadının çarşabından çıxmasını, onun azadlığı kimi qələmə verirdilər. Avropa, rus qadınları ilə müsəlman qadınlarını müqayisə edir və onları nümunə gətirirdilər. Ümumiyyətlə, bir növ onlar cəmiyyətin Qərbin mədəni dəyərlərinə yiyələnməsinə çalışırdılar. Bu baxımdan, onlar milli-mənəvi intibahi islam-millət vəhdətində görən "Füyuzat" jurnalının nümayəndələrindən fərqlənirdilər.

Görkəmli mollanəsrəddinçi Cəlil Məmmədquluzadəni də qadın hüquqsuzluğu çox narahat edirdi. O, dəfələrlə bu mövzuya müraciət etmiş, kişilərə üz tutaraq, onları qadınlara münasibətdə ədalətli olmağa çağırmış, cəmiyyətdəki anomaliya və kataklizmlərin, məhz hüquqsuzluq ucundan intişar etdiyini bildirmişdir. Onun fikrincə, bizim qadınlar nə qədər çox savadlı və təhsilli olsalar, öz hüquq və vəzifələrini dərindən bilərlər. Azərbaycan cəmiyyətinin digər sivil cəmiyyətlər sırasına çıxması yolunda maneələr aradan qalxar və bu ölkə yüksək inkişaf tempi götürər. Bununla belə, böyük mütəfəkkir Qərb qadınlarının ünvanına bəzi "savadlı" şəxslər tərəfindən irəli sürülən fikirləri tamamilə təkzib edirdi. Həmin şəxslərin Qərb qadınlarının ünvanına təhqiramiz ifadələr söyləməsinin səbəbini onda görürdü ki, bu şəxslər Azərbaycan qadınlarının müasirləşməsini istəmirdilər. Dramaturq yazırdı: "Axır vaxtlarda Qərb övrətləri barəsində müsəlman qəzetlərinin bir parasında bir neçə məqalələr gözümə sataşır. Bu məqalələrin məzmunundan belə anlaşılır ki, Qərb övrətlərinin hamısı həya və ismətsiz övrətlərdir; demək ki, cümləsi fahişə kimi bir şeydirlər.

Mənim yenə hərdən bir xəyalıma gələrdi ki, bəlkə bu övrətlərin içində, heç olmasa, bir-iki həyalı övrət tapıla. Amma təzə filosoflarımızın sözlərindən belə məlum olur ki, heç biri də tapılmaz.

Şükür edirəm Allaha ki, təzə yazıçılarımızın bərəkətindən, mənim gözlərim açıldı və o şeyləri ki, mən bilmirdim, - indi bildim. Yoxsa mənim Qərb övrətləri barəsində olan zənnim həqiqətdə batil imiş; mən onların xüsusunda, səhv eləyirmişəm.

Onların içində yenə heç olmasa bir nəfər Janna d'Ark adında firəng qızı əlində şəmşir cihada çıxıb. Firəngistan vətənini düşmənlərin hücumundan mühafizə edibdir.

1855-ci ildə günlərin birində bolqar müəllimlərindən cavan bir qız əlinə qırmızı bayraq alıb şəhərin meydanına çıxdı və vətənpərvəranə nitqlərlə bolqarları elə həyəcana gətirdi ki, iki-üç saat içində başına iyirmi mindən artıq fədai yığıldı və həmin fədailərlə osmanlı məmurlarının üstünə hücum çəkib, cümləsini qovdu və Rumeli şərqi vilayətinin osmanlı əlindən çıxıb Bolqariyaya keçməsinə bais oldu.

Heyif ki, bizim mühərrirlərimiz deyirlər, bu da fahişədir.

Mən elə güman eləyirdim ki, bunların içində yenə, heç olmasa, minlərcə tapılar ki, elm, fənn və maarif aləmində ictihad edib, hər biri öz milləti və vətəninin iftixarına bais olublar. Bunların adlarını əgər başlayaq yazmağa - gərək, o vədə bir yekə kitab çap eləyək. Bu da bizlərə nə lazım?

Mənim yadımdadır ki, "hüquqi-nisvan" (qadın hüququ - red. qeydi) məsələsi Avropada çox danışılıb. Hələ nəinki qəzetlərdə danışılıb, hətta bu məsələni müzakirə edən Avropa alimləri böyük kitablar bağlayıblar. Məşhur Kant və Con Mil adında Avropa filosoflarının övrət məsələsinə dair yazıları yekə bir kitab şəklində Avropa dillərinin hamısına tərcümə olunub.

İndi mən Avropa filosofları ilə bizim müsəlman filosoflarına yazdıqlarını tutuşdururam və mənim nəzərimə bir neçə şey gəlir:

Əvvələn, övrət məsələsi barəsində Avropada söz danışan alimlər bütün Avropa və Amerikada məşhur filosoflardır ki, kitabları bir neçə dilə tərcümə olunub, amma bizim içimizdə axır vaxtlarda övrət məsələsini kəşf eləyənlər, məhz baqqallarla növhəxanlarımızdır ki, indiyə kimi onların adları yazıçılıqda heç öz məhəllə əhlinə də məlum deyil.

İkinci, Avropa filosofları övrət məsələsindən danışanda, çox millətlərin övrətlərindən söhbət açıblar, amma heç bir millətin övrətlərinin barəsində ədəbsizliklə və xarlıqla danışmayıblar; amma bizim filosofların yazıları başdanaxıra kimi Qərb övrətlərinə föhş demək və hörmətsizliklə danışmaqdır.

Üçüncü, Avropa üləmasının övrət məsələsinə dair yazılarını oxuyanda, görürsən ki, bu zalımlar dünyanın hər bir guşəsindən xəbər verirlər; ama bizim filosofların yazdıqlarını oxuyanda, adam elə bilir ki, deyəsən, bunlar Bakı və Tiflis şəhərlərinin gecələr qaranlıq küçələrində gəzən bir para kefli arvadlardan savayı, dünyada heç bir özgə övrət görməyiblər!"

Bəli, uzun illərdir ki, Azərbaycan ədibləri cəmiyyətdəki qadına qarşı yaranmış bəzi qüsurlu münasibətlərin aradan qaldırılması üçün vaxtında həyəcan təbili çalmışlar. Lakin bu gün də bəzi namünasib elementlər hələ də qalmaqdadır. Bununla belə, hazırda "mühitimizin gülməyi" üçün "qadınların gülməyi"nin zəruriliyi daha dərindən dərk olunur və bu sahədə ölkə səviyyəsində genişmiqyaslı iş aparılır və islahatlar həyata keçirilir.

Bu məktəbin nümayəndələrinin hamısı bir fikri təmsil etmirdi. Məsələn, Ömər Faiq islamın mütərəqqi din olduğunu, cəhalətin isə islama zidd olduğunu bildirirdi: "İslam hamıdan artıq hurriyyət və musavat, ədl və mərhəmət tərəfdarıdır... bəlkə hürriyyət və musavatın anası - mənbəyidir". Ömər Faiq millətin şüurunda qorxu mənbəyi olan mifik əjdaha və div obrazları kimi cahillik elementlərinin tərəqqiyə mane olduğunu, eyni zamanda, dünyəvi elmlərin yayılmasına qarşı çıxan, dünyəvi elmlərin ruhani dini elmə zidd olduğunu irəli sürən mövhumatçı ruhanilərin inkişafa zidd olduğunu göstərirdi. O yazırdı: "Dəyişməli, bizdə mütləq dünyəvi əməllərimizi, göz görə-görə təhlükələrə, fəlakətə sürükləyən köhnə adətlərimizi, cahilanə fikirlərimizi, əməllərimizi dəyişməliyik." Ömər Faiq bu dəyişiklikləri zamanın tələbinə bağlı olan zərurət hesab edirdi. O, ilk öncə, xalqı bu vəziyyətdən xilas etməyin yolunu maariflənməkdə, yeni məktəblərin, mətbuatın genişlənməsində görürdü. Bu yol ilə imperializm qüvvələrinin istismarından xilas olmağın mümkünlüyünü irəli sürürdü.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 8 sentyabr


## "El-Klassiko"nun vaxtı müəyyənləşdi

Futbol üzrə İspaniya La Liqasında 2018/2019 mövsümünün ilk "El-Klassiko"sunun vaxtı məlum olub. Qol.az-ın xəbərinə görə, bu barədə La Liqanın prezidenti Xavyer Tebas yerli mətbuata məlumat verib. La Liqanın 10-cu turunda "Barselona" doğma meydanda "Real"ı qəbul edəcək. Oktyabrın 28-də keçiriləcək matç Bakı vaxtı ilə saat 19:15-də başlayacaq. Qeyd edək ki, La Liqada 3 turdan sonra "Barselona" və "Real" hərəyə 9 xalla müvafiq olaraq 1-ci və 2-ci pillədə qərarlaşıb.




## Ayaqda ağrılar: səbəblər, diaqnostika, profilaktika

***Ayaqda ağrılar müxtəlif xəstəliklərin əlaməti kimi özünü büruzə verə bilər. AZƏRTAC rus tibb saytlarına istinadən xəbər verir ki, bu ağrılar iti, key və ya uzun sürən xarakterli ola bilər. Ağrılar əzələ, damar, oynaq və nevroloji xəstəliklər, eləcə də travmalar səbəbindən meydana gələ bilər.***

### Səbəbləri



Qan qatılığı zamanı ağırlıq və gərginlik hiss etdirən, uzun sürən key ağrılar olur. Bu proses bir neçə müddət davam etdikdə aşağı ətraflarda damar genişlənməsinə səbəb olur. Ağrılar adətən axşama doğru başlayır.

Hamam, sauna, vanna qəbulu kimi isti mühitdə də ayaqlarda ağrı hiss oluna bilər. Qadınlarda bunun baş vermə səbəbi əsasən hormonal pozuntulardır. Estetik olaraq da bu bir sıra problemlərə səbəb olur. Belə ki, ayaqlarda damar düyünləri və kapillyarlar yarana bilər. Tromboflyubitə (damar xəstəliyi) xarakterik olan iti ağrılar, güclü döyüntü və yanğı hissidir.

Ateroskleroz arteriyaları zədələyir, qan damarlarının qalınlaşmasına səbəb olur. Bu problemdən əziyyət çəkənlər adətən əzələlərin və ayaq barmaqlarının əsasən gəzərkən sıxılmasından şikayət edirlər. Bəzən bu hisslər axşam vaxtı daha qabarıq olur.

Onurğa problemləri bir qayda olaraq ayaqda ağrılara da səbəb olur. Adətən bu fəqərəarası disk yırtığı zamanı özünü daha qabarıq büruzə verir. Bu təbəqəyə oturaq sinirin iltihabı səbəbindən əmələ gələn problemlər də aiddir.

Yaşlı dövrə, o cümlədən orqanizmdəki sistem xəstəlikləri səbəbindən müxtəlif damar patologiyaları inkişaf edir ki, bunlar da ayaqda ağrılara səbəb olur.

Düzdaban xəstəliyi də ayaqda ağrıya səbəb ola bilər. Bundan əlavə bu problem ayaqların tez yorulması, ağırlıq hisslərinə də səbəb olur. Periferik sinir sistemi xəstəlikləri iti, dalğavarı ağrılarla müşahidə olunur. Nevroloji tutmalar ağrı olmadan bir neçə saniyə, dəqiqə və ya saat davam edə bilər. Ən şiddətli ağrılar adətən əzələ iltihabı zamanı baş verir, ən qorxulu və ağır fəsadlarla nəticələnə biləcək ağrılar isə müxtəlif infeksiyalar səbəbindən yaranır. Aşağı ətrafların travmaları da ağrısız keçmir.

### Diaqnostika

Ayaq ağrılarına görə xəstəliyi müəyyən etmək düzgün deyil. Bunun üçün tam kliniki müayinədən keçmək mütləqdir.

### Profilaktika

Ayaq damarlarında yaranan patologiyanın profilaktikası, ilk növbədə, ürək-damar sistemində meydana çıxan problemlərin qarşısını almağa kömək edir. Mütəmadi olaraq idmanla məşğul olmaq orqanizmdə qan axımını tənzimləyir. Qarın əzələlərinin bərkidilməsi də ayaqlarda ağrıların, eləcə də onurğa problemlərinin qarşısını ala bilər.

## İkiqat Avropa çempionu: "Dünya çempionatına yüksək səviyyədə hazırlaşmışıq"



Sonuncu təlim-məşq toplanışımızı Türkiyə yığması ilə birgə keçirik. Hazırlıq prosesi yaxşı gedir. Əsas hədəfimiz dünya çempionatıdır. AZƏRTAC xəbər verir ki, bunu sərbəst güləş üzrə yığmamızın lideri, Olimpiya mükafatçısı, ikiqat Avropa çempionu Cəbrayıl Həsənov jurnalistlərə müsahibəsində deyib.

Avropa çempionu bildirib ki, qardaş ölkənin güləşçiləri ilə birgə toplanış faydalıdır. Hər iki komanda üçün bu hazırlıq xeyir verir. Yarışlara yüksək səviyyədə hazırlaşmışıq. Mundialda maksimum nəticəyə imza atmağa çalışacağıq. Türkiyə yığmasında mənim çəkimdə olan güləşçi ilə Avropa çempionatında qarşılaşmışdım. Ümumiyyətlə, bütün rəqiblərimi diqqətlə izləyirəm ki, dünya çempionatında qalib gəlim".

## Neymar Braziliya millisinin əsas kapitanı oldu




Braziliya millisinin əsas kapitanı müəyyənləşib. Qol.az-ın xəbərinə görə, bu barədə yerli mətbuata komandanın baş məşqçisi Tite məlumat verib. O, kapitanlıq sarğısını PSJ-nin hücumçusu Neymarın daşıyacağını deyib. Bu il Rusiyada keçirilən dünya çempionatında müxtəlif futbolçular Braziliya millisində kapitan olmuşdu. Qeyd edək ki, 2010-cu ildən yığmaya dəvət alan Neymar 90 oyuna 57 qol vurub.

## Serena Vilyams və Naomi Osaka "US Open" turnirinin finalına vəsiqə qazanıblar



Sentyabrın 7-də Nyu-Yorkda keçirilən qadınlar arasında tennis üzrə nüfuzlu turnirlərdən olan "US Open"in finalçıları məlum olub. AZƏRTAC xəbər verir ki, ilk yarımfinal oyununda Serena Vilyams (№17) Anastasiya Sevastovoy (№19) ilə üz-üzə gəlib. Bu tennisçilər ilk dəfə qarşılaşıblar. Görüş 1 saat 7 dəqiqə davam edib və amerikalı idmançı Serena Vilyamsın qələbəsi ilə başa çatıb (6:3, 6:0).

Digər yarımfinalda Naomi Osaka (Yaponiya, №20) və Medison Kiz (ABŞ №14) qarşılaşıb. Görüş yaponiyalı idmançının qələbəsi ilə yekunlaşıb - 6:2, 6:4. Osaka 1 saat 27 dəqiqə ərzində qələbəsin təmin edərək finala vəsiqə qazanıb. Yaponiya təmsilçisi karyerasında ilk dəfə Medison Kizi məğlub edib. Bunadək üç dəfə qarşılaşan idmançıların mübarizəsində amerikalı tennisçi üstün olub. Osaka ilk dəfə olaraq "Böyük Dəbilqə" seriyasının finalına vəsiqə qazanıb. Bu vaxta kimi heç bir Yaponiya idmançısı final mərhələsində oynamayıb. Final görüşü sentyabrın 9-da Bakı vaxtı ilə gecə saat 12-də başlayacaq. Kişi tennisçilər arasında isə yarımfinal oyunları sentyabrın 8-də baş tutacaq. Rafayel Nadal (İspaniya, №1) Xuan Martin del Potro (Argentina, №3) ilə, Key Nisikori (Yaponiya, №21) isə Novak Cokoviç (Serbiya, №6) ilə üz-üzə gələcəklər. Qeyd edək ki, "US Open" turnirinin mükafat fondu 53 milyon dollar təşkil edir.

## "Real" klubunun gəliri 750,9 milyon avroya çatıb



İspaniyanın Birinci Futbol Liqasında (La Liqa) çıxış edən "Real Madrid" klubunun 2017-2018-ci il mövsümündəki gəliri 750,9 milyon avroya çatıb. Anadolu informasiya agentliyi xəbər verir ki, "Real Madrid" komandasının ötən mövsümlə bağlı dərc etdiyi maliyyə hesabatına əsasən, klubun fəaliyyətindən gələn gəlirlər bundan öncəki mövsümlə müqayisədə 11,3 faiz artaraq 750,9 milyon avro təşkil edib. Hesabata oyunçu transferlərindən əldə olunan qazanclar daxil edilməsə də, 76 milyon avroluq artım 2000-ci ildən bəri qeydə alınan ən yüksək göstəricidir. Borcu olmayan paytaxt təmsilçisinin ardıcıl üçüncü dəfə mövsümü gəlirlə başa vurduğu bildirilir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**